

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№19 (609) ■ 23 may 2012 www.vergiler.az Qiymәti: 40 qəp.

# Azərbaycan Prezidentinin ABŞ-a işgüzar səfəri

## *Prezident İlham Əliyev NATO-nun Sammitində çıxış etmişdir*

Mayın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun Sammitində iştirak etmək üçün ABŞ-ın Çikaqo şəhərinə işgüzar səfərə gəlmişdir. Dövlətimizin başçısı səfərinin ilk günündə Gürcüstan Prezidenti Mixeil Saakaşvili ilə görüşmüşdür. Görüşdə Azərbaycan-Gürcüstan əlaqələrinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunmuş, ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır. Mayın 19-da, həmçinin, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq bildirilmiş, münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.




Azərbaycan Prezidenti İlham Əliyev mayın 20-də ABŞ-da Sloveniya Respublikasının Baş naziri Yanez Yanşa ilə görüşmüşdür. Görüşdə ölkələrimiz arasında münasibətlərin son dövrlərdə inkişafından məmnunluq ifadə olunmuş, Azərbaycan-Sloveniya əlaqələrinin iqtisadi, xüsusilə də enerji, sərmayə qoyuluşu sahələrində və müxtəlif layihələrdə birgə iştirakı baxımından əhəmiyyəti qeyd edilmişdir. Tərəflər ölkələrimiz arasında əməkdaşlığın Avropa İttifaqı çərçivəsində daha da genişlənməsinin yaxşı potensialı olduğunu diqqətə çatdırmışlar.

Prezident İlham Əliyev ABŞ-a səfəri çərçivəsində Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzzetbekoviç ilə də görüşmüşdür. Qeyd olunmuşdur ki, ölkələrimiz arasında əlaqələr inkişaf etmiş, ikitərəfli əməkdaşlıq müxtəlif sahələrdə yaxşı nəticələr vermişdir. Tərəflər bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulamışlar. Azərbaycan Prezidenti mayın 20-də Monteneqronun Baş naziri İqor Lukşiç ilə görüşmüş, ölkələrimiz arasında əlaqələrin uğurla inkişafından danışmışdır. Bildirilmişdir ki, siyasi sahədə əlaqələrimizin möhkəmlənməsi digər sahələrdə, o cümlədən iqtisadi istiqamətdə də əməkdaşlığın genişlənməsinə təkan vermişdir. Ölkələrimiz arasında energetika, turizm, nəqliyyat infrastrukturu və digər sahələrdə əməkdaşlığın yaxşı perspektivləri mövcuddur.

Mayın 21-də ABŞ-ın Çikaqo şəhərində keçirilən NATO-nun Sammiti çərçivəsində dövlət və hökumət başçılarının görüşü olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir. NATO-nun baş katibi Anders Foq Rasmussen və ABŞ Prezidenti Barak Obama çıxış edərək gündəlikdəki məsələlərdən danışmışlar. Prezident İlham Əliyev görüşdə çıxış etmişdir.

Çikaqoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri Devid Kemeronun görüşü olmuşdur. Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf səviyyəsindən məmnunluq bildirilmiş, əlaqələrin daha da genişlənəcəyinə əminlik ifadə olunmuşdur. Bildirilmişdir ki, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq gözəl nəticələr verir. Görüşdə «bp» şirkəti ilə birgə səylər nəticəsində «Cənub» dəhlizinin yaradılması istiqamətində uğurlu addımlar atıldığı və bu prosesin davam etdirildiyi qeyd olunmuşdur. Tərəflər bir sıra regional məsələlər barədə də fikir mübadiləsi aparmışdır.

ABŞ-a işgüzar səfəri başa çatdıran Prezident İlham Əliyev mayın 22-də vətənə qayıtmışdır.

## Zuğulbada «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzinin açılışı olmuşdur

Mayın 16-da Daxili İşlər Nazirliyinin Zuğulbada inşa edilmiş «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.



Məlumat verildi ki, 13,5 hektar ərazidə salınan «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzində yeddimərtəbəli əsas korpus, nəzarət-buraxılış məntəqəsi, konfrans bölməsi, idman meydançaları, açıq və qapalı hovuzlar, xüsusi çimərlik sahəsi, ikimərtəbəli kotteclər, dəniz kənarında müxtəlif iaşə obyektləri və digər istirahət guşələri yaradılmışdır. İnşa edilmiş bina və qurğuların ümumi sahəsi 30 min kvadratmetrdir. Mərkəzin su təchizatı məqsədi ilə artezian quyuları qazılmışdır. Həm mərkəzin qarşısında, həm də sahil boyu ərazidə göz oxşayan geniş yaşıllaşdırma işləri aparılmışdır. Dəniz gəzintisi üçün xüsusi ərazi vardır. «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzi bütün zəruri mühəndis-kommunikasiya və müasir işıqlandırma sistemləri ilə təchiz olunmuşdur. Mərkəzin ərazisindəki yollar da yenidən qurulmuşdur.

Əsas korpusla tanışlıq zamanı bildirildi ki, müasir memarlıq üslubunda inşa olunmuş yeddimərtəbəli binanın ümumi sahəsi 25 min kvadratmetrə yaxındır. Burada 328 yerlik yataq və istirahət otaqları yaradılmışdır. Binanın foyesində və birinci mərtəbəsində istirahət guşələri qurulmuşdur. Mərkəzdə müasir tələblərə cavab verən iaşə obyektləri inşa olunmuşdur. Müxtəlif beynəlxalq və yerli tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan 400 nəfərlik konfrans zalında hər cür şərait vardır. Burada fitnes və ən müasir idman avadanlığı quraşdırılmışdır, uşaqlar üçün əyləncə mərkəzi fəaliyyət göstərir.

Sonra Prezident İlham Əliyev mərkəzin otaqlarında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, bütün otaqlarda istirahət üçün yüksək şərait vardır. Otaqlardan Xəzər dənizinə gözəl mənzərə açılır.

Daha sonra Azərbaycan Prezidenti mərkəzin ərazisini gəzdi. Qeyd olundu ki, mərkəzin dənizə baxan hissəsində 160 kvadratmetr ərazidə dekorativ su hovuzu inşa olunmuşdur. Ərazidə əsas korpusla yanaşı, ikimərtəbəli 8 kottec tikilmişdir. Açıq havada yaradılan iki su hovuzu həm böyüklər, həm də kiçiklər üçün nəzərdə tutulmuşdur. Mərkəzdə qonaqların istirahətinin yüksək səviyyədə təşkili məqsədi ilə sahilə yaxın ərazidə ilin müxtəlif mövsümlərində iaşə obyektləri fəaliyyət göstərəcəkdir. Bu istirahət guşələri də müasir standartlar səviyyəsində qurulmuşdur. Dəniz gəzintisinə çıxmaq istəyənlər qayıqlardan istifadə edə biləcəklər. İstirahət məkanını dənizin çimərliyi tamamlayır.

Mərkəzdə yaradılmış şəraiti yüksək qiymətləndirən Prezident İlham Əliyev kollektivi təbrik etdi, uğurlar arzuladı.

## Prezident İlham Əliyev Özbəkistan səfirinin etimadnaməsini qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Özbəkistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şerzod Fayziyevin etimadnaməsini qəbul etmişdir. Səfir Şerzod Fayziyev fəxri qarovul dəstəsinin qarşısından keçdi. Şerzod Fayziyev etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Şerzod Fayziyev Özbəkistan Prezidenti İslam Kərimovun ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Ölkələrimiz arasında münasibətlərin inkişafının razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı bu münasibətlərin səmimi, dostluq xarakteri daşıdığını dedi. Prezident İlham Əliyev ötən il dövlət müstəqilliyinin 20 illiyini qeyd edən Azərbaycanın və Özbəkistanın bu illər ərzində böyük uğurlar qazandığını bildirdi. Özbəkistana səfərlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev xalqlarımız və iki ölkənin dövlət rəhbərləri arasında yaxşı münasibətlərin mövcud olmasının əlaqələrimizin inkişafındakı önəmini qeyd etdi. Səfirə fəaliyyətində uğurlar arzulayan dövlətimizin başçısı iqtisadi xarakterli layihələrin reallaşa biləcəyi yeni mərhələdə münasibətlərimizin daha da möhkəmləndirilməsi işinə səfirin öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan səfir Şerzod Fayziyev bu əlaqələrin, o cümlədən iki ölkənin dövlət başçıları arasında mövcud olan münasibətlərin səmimi xarakter daşıdığını bildirdi. Dövlətimizin başçısı Prezident İslam Kərimovun ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da ən xoş arzularını Özbəkistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

2 «Onlayn şəffaflıq hesabatı»nda Vergilər Nazirliyi liderdir
3 Nağdsız ödənişlər dünyada yüksək mədəniyyət göstəricisi kimi qəbul olunur
4 Regionlar üzrə vergi daxilolmalarının həcmi artır
5 Azərbaycanın beynəlxalq nüfuzu daha da yüksəlir

# POS-terminalların quraşdırılması istiqamətində görülən işlərlə bağlı toplantı keçirilmişdir

*Mayın 16-da əhali ilə nağdsız hesablaşmaların aparılması, POS-terminalların quraşdırılması istiqamətində görülən işlərlə bağlı Vergilər, İqtisadi İnkişaf, Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları nazirliklərinin, eləcə də Mərkəzi Bankın rəhbər vəzifəli şəxslərinin, bank və biznes sektorunun nümayəndələrinin iştirakı ilə toplantı keçirilmişdir.*

Tədbirdə ölkə iqtisadiyyatında nağdsız ödənişlərin xüsusi çəkisinin artırılması, alqı-satqı əməliyyatları üzrə hesablaşmalarda plastik kartlardan istifadənin genişləndirilməsi, POS-terminallarınn quraşdırılması istiqamətində görülən işlərlə bağlı məsələlər müzakirə edilmişdir.

Toplantıda çıxış edən vergilər naziri Fazil Məmmədov «Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2010-cu il tarixli fərmanında, eləcə də ölkə başçısının sədrliyi ilə 14 yanvar 2011-ci il tarixində keçirilmiş Nazirlər Kabinetinin 2010-cu ilin sosial iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında aidiyyəti dövlət qurumlarına ölkə ərazisində aparılan əməliyyatların nağdsız qaydada həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən verilmiş tapşırıqların icra vəziyyəti barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, bu istiqamətdə görülən işlərin icrasına nəzarət etmək məqsədilə xüsusi qərargah yaradılmışdır. Qərargahın fəaliyyəti, işlərin koordinasiyalı şəkildə qurulması, eləcə də prosessinq mərkəzləri ilə aparılmış danışıqlar nəticəsində POS-terminalların qeydiyyatı, quraşdırılması və tətbiqi prosesinin sadələşdirilməsi ümumilikdə ticarət və xidmət obyektlərinin POS-terminallarla təchiz olunması prosesinə təkan vermiş, qısa müddət ərzində ciddi dəyişikliklərə nail olunmuşdur.

Bank ekvayerlərinin prosesə fəal şəkildə qoşulması nəticəsində ölkəyə zəruri sayda POS-terminal gətirilmiş, 2012-ci ilin fevral ayından 2012-ci ilin may ayının 15-dək Bakı şəhərində 14 min obyektdə 17 mindən çox POS-terminal qeydiyyatdan keçirilmişdir.

Bütövlükdə Bakı şəhəri və turizm xəritəsinə aid olan mərkəzlərdə fəaliyyət göstərən mehmanxanalarda, ticarət, iaşə, istirahət və əyləncə obyektlərində, taksilərdə, yanacaqdoldurma məntəqələrində, tibb xidməti göstərən, əczaçılıq mallarının satışı ilə məşğul olan obyektlərdə və digər sahələrdə POS-terminalların quraşdırılması işi əsasən yekunlaşdırılmışdır. Hazırda respublika üzrə 26443 obyektdə 30940 aktiv POS-terminal qeydiyyata alınmışdır ki, bunun da 93,7 %-i və ya 28976 ədədi Bakı şəhərinin ərazisində yerləşən obyektlərdədir.

Nəqliyyat sektorunda da POS-terminalların quraşdırılması işləri sürətlə davam etdirilir. Hazırda 830-dan yuxarı taksidə POS-terminalların quraşdırılması başa çatmışdır. Qeyd edilmişdir ki, nəqliyyat vasitələrində tətbiq olunan POS-terminallar beynəlxalq tranzaksiya sisteminə inteqrasiyanı dəstəkləməklə yanaşı, onlardan istifadə edən şəxslərin xarici bank hesabları üzrə plastik kartlarını oxumaq imkanına da malikdir.

Tədbirdə bildirilmişdir ki, vətəndaşların elektron ödəniş sistemlərindən istifadəsi sahəsində maarifləndirmə siyasəti də mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə nağdsız ödənişlərin stimullaşdırılması və POS-terminallardan istifadə barədə əhalinin məlumatlandırılması və maarifləndirilməsinə dair xüsusi Tədbirlər Planı hazırlanıb həyata keçirilmişdir. Həmin plan çərçivəsində vergi ödəyicilərinin və əhalinin fəal maarifləndirilmə işinə başlanmış, nağdsız hesablaşmaların üstünlükləri, ödəniş kartları və POS-terminallara dair 30 mindən yuxarı kitabça və buklet hazırlanaraq aidiyyəti üzrə paylanmışdır. Nağdsız hesablaşmaların üstünlüklərini təbliğ etmək üçün kütləvi informasiya vasitələrinin imkanları səfərbər edilmiş, reklam çarxları hazırlanmış, sosial şəbəkələrdə təbliğat işi gücləndirilmişdir.

Qısa müddət ərzində olduqca geniş miqyaslı işlər görülməsinə baxmayaraq, tədbir iştirakçıları bu prosesin davamlı xarakter daşımasının vacibliyini vurğulamışlar. Qeyd olunmuşdur ki, nağdsız ödəmələrin aparılması üçün müvafiq infrastruktur yaradılsa da və son illər ölkəmizdə plastik kartların sayı bir neçə dəfə artaraq 4,6 milyona çatsa da, onlardan istifadə hələ lazımi səviyyədə deyildir.

Toplantıda nağdsız ödənişlərin həcminin artırılması, POS-terminallardan istifadə olunan obyektlərin əhatə dairəsinin genişləndirilməsi sahəsində müvafiq strukturların üzərinə düşən işlərin koordinasiyası ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Rabitə və informasiya texnologiyaları nazirinin müavini İltimas Məmmədov elektron xidmətlər və mobil texnologiyaların tətbiqi sahəsində son aylar aparılan işlər barədə məlumat verərək bildirmişdir ki, rabitə sektoru da nağdsız ödəmələrin genişləndirilməsinə öz töhfəsini verməkdədir.

İqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov nağdsız ödənişlərin genişləndirilməsinin ölkə iqtisadiyyatı üçün mühüm aspektləri barədə danışmış, təmsil etdiyi qurumun bu sahədə gördüyü işlərə toxunmuşdur.

Nəqliyyat nazirinin müavini Musa Pənahov nəqliyyat sahəsində nağdsız ödəmələrin tətbiqi sahəsinin genişləndirilməsi ilə bağlı məsələlərə toxunmuş, taksilərdə, dəmir yolu sahəsində POS-terminalların quraşdırılması, sürücülərin maarifləndirilməsi sahəsində aparılan işlər barədə danışmışdır.

Mərkəzi Bank sədrinin birinci müavini Alim Quliyev isə son dövrlərdə nağdsız ödəmələrin infrastrukturunun genişləndirilməsi sahəsində aparılan işlərin, qısa müddət ərzində böyük sayda POS-terminalların qurulmasının əhəmiyyətinu vurğulamışdır. Prosesin banklar və prosessinq mərkəzləri tərəfindən də dəstəklənməsinin davam etdirilməsinin, vətəndaşların maarifləndirilməsi prosesinə bankların daha fəal qoşulmalı olduğunun vacibliyi vurğulanmışdır. Qeyd olunmuşdur ki, nağdsız ödəmələrin genişləndirilməsi sahəsində bu gün aparılan işlər gələcəkdə bank sektorunun inkişafına da öz müsbət təsirini göstərəcəkdir.

Toplantıda biznes və bank sektorunun nümayəndələri də çıxış edərək məsələ ilə bağlı öz fikir və təkliflərini söyləmişlər.

# «Onlayn şəffaflıq hesabatı»nda Vergilər Nazirliyi liderdir

## *Media Hüququ İnstitutu dövlət orqanlarında internet saytının monitorinqi ilə bağlı yekun nəticələri açıqlayıb*

*Media Hüququ İnstitutu (MHİ) 68 dövlət qurumunun internet saytının monitorinqini başa çatdırıb. MHİ monitorinqin nəticələri əsasında hazırladığı «Onlayn şəffaflıq hesabatı»nı ictimaiyyətə təqdim edib. Qurumun açıqlamasında qeyd olunur ki, monitorinq beynəlxalq qeyri-hökumət təşkilatları tərəfindən ümumi qəbul olunmuş metodologiyaya uyğun aparılıb. Metodologiya əvvəlcədən dövlət qurumlarına təqdim edilib və onlarla mütəmadi əlaqə saxlanılaraq müzakirə aparmaq təklif olunub.*

Dövlət qurumlarının fəaliyyəti ilə bağlı şəffaflıq hesabatında qeyd olunur ki, monitorinqin məqsədi dövlət qurumlarının internet üzərindən məlumatları yaymaq vəzifəsini necə icra etməsinin gerçək durumunu öyrənmək, problemlərini müəyyənləşdirib hökumətin bilgi azadlığı yönündə dəyərlərinə yardımçı ola biləcək tövsiyələr hazırlamaq, medianı, vətəndaşları bilgi əldə etmək haqlarından davamlı yararlanmağa həvəsləndirmək olub. Cari ilin fevral, mart və aprel aylarını əhatə edən hesabat «Bilgilərin tamlığı», «Bilgilərin aktuallığı», «Bilgilərə çatma imkanı» metodologiyası üzrə aparılıb.

«Dövlət qurumlarının onlayn şəffaflıq hesabatı»nı hazırlayan ekspertlər qrupunun rəhbəri Xalid Ağalıyev: «Təşkilatımız ildə iki dəfə dövlət qurumlarının internet saytlarının monitorinqini aparır və yekunlar əsasında hesabat hazırlayır. İlk monitorinq üzrə hazırlanmış hesabat 5 bölümdən ibarətdir. Birinci bölüm ön sözə, hesabatın məqsədlərinə həsr olunub. Növbəti bölümdə bilgi azadlığı qanunvericiliyi şərh olunur, 3-cü bölümdəsə internet saytlarının monitorinqinin metodologiyası yer alıb. Metodologiyaya görə, monitorinq zamanı 200 növə qədər bilginin saytlara daxil edilib-edilmədiyi araşdırılıb. Eyni zamanda, 200 növə qədər bilginin tamlığı, aktuallığı, habelə ünvanına çatmaq rahatlığı da araşdırma obyekti olub. Monitorinqin nəticələrinə əsasən, Vergilər Nazirliyinin saytı şəffaflıq göstəricisi üzrə 46% qiymətləndirilərək dövlət orqanları arasında ən qabaqcıl sayt kimi müəyyən olunub. Vergilər Nazirliyinin internet resursları digər dövlət orqanları ilə müqayisədə xeyli dolğun və informasiyalıdır. Vergi ödəyiciləri e-xidmətlərlə bağlı saytdan lazım olan bütün məlumatları əldə etmək imkanlarına malikdirlər. Ümumiyyətlə, son illər dövlət orqanlarının bir çoxunun saytlarında informasiyalılığın səviyyəsinin artması müşahidə olunur, şəffaflıq səviyyəsi ilə əlaqədar göstəricilərdə irəliləyiş var. Saytlar informasiya genişliyi və məzmunluluğu ilə seçilirlər, bu isə internetdən istifadəyə marağı artıraraq, onun əhatə dairəsini də genişləndirir. Vergilər Nazirliyi informasiya-kommunikasiya texnologiyalarının dövlət idarəçiliyində tətbiqi üçün durmadan davamlı işlər aparması ilə diqqəti cəlb edir. İnternet saytı da məhz bu sistemli işlərin nəticəsində son illər xeyli təkmilləşib. Nazirlik elektron xidmətlərin təşkili ilə bağlı qarşıya qoyduğu məqsədlərə çatmaq üçün təkmil və təfərrüatlı iş qurub. İKT-nin son yeniliklərinin tətbiqi, informasiyanın açıqlığı və digər məsələlər Vergilər Nazirliyinin internet saytında açıq şəkildə özünü göstərir».

Qeyd edək ki, bu, Vergilər Nazirliyi tərəfindən elektron xidmətlər sahəsində həyata keçirilən davamlı tədbirlərə verilən növbəti qiymətdir. Cari ilin ötən dövründə «Şəffaflıq Azərbaycan» Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi, Korrupsiyaya Qarşı Mübarizə uzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafina Yardım Fondunun birgə hazırladığı hesabatda Vergilər Nazirliyinin e-xidmətlər sahəsində gördüyü işlər yüksək qiymətləndirilmişdi. Bundan başqa, bir müddət əvvəl Multimedia Mərkəzinin dövlət orqanlarında internet resurslarından istifadə ilə bağlı apardığı monitorinqin yekunlarına görə, nazirliyin fəaliyyətinə yüksək qiymət verilmişdi.

# Nailiyyətlərimizin sərgisi




15 - 17 may tarixlərində Bakı şəhərində keçirilmiş 18-ci beynəlxalq «Azərbaycan qida sənayesi» sərgisinin rəsmi açılış mərasimində kənd təsərrüfatı naziri İsmət Abbasov çıxış edərək bu tədbirin həm ölkədə, həm də regionda ərzaq təhlükəsizliyinin təmin edilməsi nöqteyi-nəzərindən əhəmiyyətli bir layihə olduğunu vurğulamışdır: «Ölkə qarşısında yaxın 10 il ərzində ümumi daxili məhsulu iki dəfə artırmaq kimi mühüm bir vəzifə qoyulmuşdur və bunu da əsasən qeyri-neft sektorunun inkişafı hesabına təmin etmək vacibdir. Ölkənin qeyri-neft sektorunda kənd təsərrüfatının böyük rolunu nəzərə alsaq, belə sərgilərin keçirilməsi, əlbəttə ki, çox əhəmiyyətlidir».

Dünyanın 24 ölkəsindən 120 şirkətin iştirak etdiyi sərginin ümumi ekspozisiyasının təxminən 40%-ni Azərbaycan şirkətlərinin stendləri təşkil edirdi.

Sərgidə iştirak etmiş Vergilər Nazirliyi öz pavilyonu ilə tədbir iştirakçılarının, xüsusilə xarici və yerli sahibkarların böyük marağına səbəb olmuşdur. Tədbir keçirilən müddətdə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşları tərəfindən sərgi iştirakçılarını maraqlandıran suallar cavablandırılmış, çoxlu sayda məlumatlandırıcı, maarifləndirici materiallar və nəşrlər paylanmışdır.

# Magistrantlar arasında referat müsabiqəsi

May ayının 17-də Vergilər Nazirliyində «Azərbaycanın vergi jurnalı»nın ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə magistrantlar arasında «Vergi siyasəti və modernləşən iqtisadiyyat» mövzusunda təşkil etdiyi referat yazılışı üzrə 2-ci respublika müsabiqəsinin yekunlarına həsr olunmuş tədbir keçirilmişdir.

Müsabiqənin təşkil edilməsində məqsəd Azərbaycanın ali təhsil müəssisələrinin magistrantları arasında vergi sahəsində araşdırmalar aparan ən yaxşı tədqiqatçıları üzə çıxarmaq, vergi mövzusunun gənc tədqiqatçılar arasında populyarlığını artırmaq və bu cəhətdən müvafiq mütəxəssislərin hazırlığını stimullaşdırmaq idi.

*«Azərbaycanın vergi jurnalı» 2003-cü ildə Vergilər Nazirliyi tərəfindən təsis edilmişdir. 2012-ci ilədək «Azərbaycanın vergi xəbərləri» adı ilə işıq üzü görən jurnal hazırda 2700 nüsxə ilə nəşr edilir. Jurnal ölkənin iqtisad elmi ilə bağlı strukturları olan bütün elm və təhsil ocaqlarına, Türkiyə və Rusiyanın mərkəzi kitabxanalarına göndərilir. Jurnalda Azərbaycan, türk, ingilis və rus dillərində elmi məqalələr nəşr edilir. Jurnala orta illik məqalə göndərişi 100-ə çatmışdır.*
*Jurnal Beynəlxalq Standart Seriya nömrəsi (ISSN) mərkəzində qeydiyyata alınmış və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin qərarı ilə ölkəmizdə iqtisad elmləri üzrə dissertasiyaların əsas nəticələrinin dərc edilməsi tövsiyə edilən dövri elmi nəşrlər sırasına daxil edilmişdir. Bu günlərdə «Azərbaycanın vergi jurnalı» Türkiyənin «Arastirmax» elmi nəşrlərin beynəlxalq indeksləşdirilməsi bazasına daxil olmuşdur. Jurnalın elmi sanbalını artırmaq, oxucu auditoriyasını daha da genişləndirmək, onu respublikamızda öz kateqoriyasında öncül mövqeyə çıxarmaq və geniş beynəlxalq elmi ictimaiyyətin diqqətinə təqdim etmək qarşıya məqsəd qoyulmuşdur.*



Tədbiri açan «Azərbaycanın vergi jurnalı»nın baş redaktoru, professor Elşən Hacızadə mərasim iştirakçılarını salamlamış, referat müsabiqəsində iştiraka görə təşəkkürünü bildirmişdir. Müsabiqənin artıq ənənə halı aldığını və 2-ci dəfə keçirildiyini bildirən baş redaktor builki müsabiqədə 26 magistrantın iştirak etdiyini, həm magistrantların, həm də müsabiqədə iştirak edən ali təhsil ocaqlarının sayında artım müşahidə olunduğunu demişdir. E.Hacızadənin sözlərinə görə, referat müsabiqəsində fəallıq nəzərə alınaraq, növbəti mərhələdə müsabiqənin beynəlxalq statusda keçirilməsi, xarici dövlətlərdən magistrantların cəlb edilməsi nəzərdə tutulmuşdur.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vegi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev bugünkü cəmiyyətdə informasiyanın əldə edilməsi və yayılmasının bütün sahələr, o cümlədən vergi sahəsi üçün olduqca vacib olduğunu və bu istiqamətdə Vergilər Nazirliyində mühüm tədbirlərin həyata keçirildiyini vurğulamışdır. Vergi haqqında biliklərin ictimailəşməsi, elmə söykənən nəticələrin əldə edilməsi istiqamətində «Azərbaycanın vergi jurnalı»nın fəaliyyətini yüksək qiymətləndirdiyini bildirmişdir.

Daha sonra müsabiqənin qaliblərinin mükafatlandırma mərasimi keçirilmişdir. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I kurs magıstrantı Abdullayeva Yenilə Ələkbər qızı 1-ci yerə, Azərbaycan Dövlət İqtisad Universitetinin I kurs magistrantı Cəfərov Abid Xalid oğlu 2-ci yerə, Azərbaycan Dövlət Neft Akademiyasının I kurs magistrantı Vəlizadə Səftər Vəli oğlu 3-cü yerə layiq görülmüşlər. Qaliblərə diplomlar, eləcə də 1-ci yer üçün 300 manat, ikinci yer üçün 200 manat, 3-cü yer üçünsə 100 manat məbləğində pul mükafatı verilmişdir. Qaliblərlə yanaşı, müsabiqədə fəal iştirak etmiş magistrantlara da təşəkkürnamə təqdim edilmişdir.

**Qaliblər deyir:**

***Yenilə Abdullayeva:*** *«Mən bundan əvvəl İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun təşkil etdiyi yazı müsabiqəsində 3-cü yeri tutmuşdum. Vergi haqqında referat müsabiqəsində ilk dəfədir iştirak edirəm. 1-ci yerə layiq görüldüyüm üçün qürur hissi duyuram. Gələcəkdə xarici dövlətlərin magistrantlarının da bu müsabiqəyə qatılacaqları çox sevindirici haldır: ölkəmizdə xarici dilləri mükəmməl bilən, beynəlxalq səviyyədə bilik yarışına qoşulacaq kifayət qədər gənclərimiz var».*

***Səftər Vəlizadə:*** *«Müsabiqədə üçüncü yer tutsam da, çox sevinirəm. Bu yer mənə sonrakı müsabiqələrdə də iştirak etmək üçün stimul verir. Gələcəkdə «Azərbaycanın vergi jurnalı» ilə əməkdaşlıq etmək niyyətindəyəm».*

**Arzu İBRAHİMOVA**

# Əli Məsimli: «Nağdsız ödənişlər dünyada yüksək mədəniyyət göstəricisi kimi qəbul olunur»



*Azərbaycan parlamentinin nümayəndə heyəti bir neçə gün əvvəl Litvanın Palanqa şəhərində Avropa İttifaqı ilə əməkdaşlığa dair Beynəlxalq Parlament Konfransında iştirak etmişdir. Milli Məclisin deputatı Əli Məsimli Baltik Assambleyasının təşkilatçılığı ilə keçirilən tədbirdə vergi məsələləri ilə bağlı müzakirələrin də aparıldığını bildirmişdir.*

**- Əli müəllim, bir neçə gün əvvəl Litvada Avropa İttifaqı ilə əməkdaşlığa dair Parlament Konfransında iştirak etmisiniz. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar təşkilat tərəfindən necə qiymətləndirilir?**

- May ayının 9-dan 13-dək keçirilən tədbirdə GUAM ölkələrinin Avropa İttifaqı ilə əməkdaşlığı əsas müzakirə mövzularından idi. Azərbaycan hazırda GUAM-a sədrlik etdiyi üçün biz konfransda həm də bu təşkilatı təmsil edirdik. Konfransda Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi məsələləri geniş müzakirə olundu.

Azərbaycandakı mövcud vəziyyətlə müqayisədə aydın görünür ki, bir çox Avropa ölkələri hələ qlobal iqtisadi-maliyyə böhranının təsirindən çıxa bilməyiblər. Böhranın mənfi fəsadları ayrı-ayrı ölkələrdə müxtəlif formada təzahür edir.

Məlumdur ki, iqtisadi böhranlar, bir qayda olaraq, durğunluq, canlanma və yüksəliş mərhələlərini keçir. Azərbaycandan fərqli olaraq, əksər Avropa ölkələrində böhran hələlik durğunluq mərhələsindədir. Böhran dövründə Azərbaycan müəyyən iqtisadi inkişafa nail olduğu, vergi dərəcələrini aşağı saldığı halda, həmin ölkələr vergi dərəcələrini artırmaq məcburiyyətində qalıblar.

**- Böhran dövründə Azərbaycanda bəzi vergi dərəcələrinin aşağı salınması sahibkarlığın inkişafına mühüm təkan verdi. Bu islahatlar necə qarşılanır?**

- Bəzi Avropa ölkələrinin təmsilçiləri Azərbaycanın bu addımını müəyyən qədər təəccüblə qarşıladılar. Çünki həmin ölkələrdə qənaət rejimi hələ aradan qalxmayıb. Amma 1929-1933-cü illərdəki dünya iqtisadi böhranının mənfi təsirlərinin aradan qaldırılmasında, qənaət rejimi ilə yanaşı, optimal nisbətdə stimullaşdırıcı tədbirlərin də mühüm rolu olub. Konkret ABŞ-ın nümunəsində demək olar ki, bir çox əhəmiyyətli tikililər, göydələnlər məhz böhran dövründə inşa olunub. Yəni iqtisadi fəallığı artırmaq, yeni iş yerləri yaratmaq üçün bu cür stimullaşdırıcı tədbirlərdən də istifadə olunur.

Əgər Azərbaycan böhran dövründə Avropa ölkələrinin yolu ilə getsəydi, onda itkilərdən minimum səviyyədə çıxa bilməyəcəkdi. Hökumət stimullaşdırıcı tədbirləri davam etdirməklə böhranın mümkün təsirlərini zəiflətdi. Mühüm addımlardan biri də vergi dərəcələrinin aşağı salınması idi. Bu da öz növbəsində investisiya və biznes mühitinin yaxşılaşmasına, sahibkarlığın stimullaşdırılmasına şərait yaratdı. Böhran dövründə bir sıra postsovet ölkələrinin milli valyutası devalvasiyaya uğrasa da, Azərbaycan manatının məzənnəsinin sabitliyi qorunub saxlanıldı, bank sektoruna likvidlik dəstəyi göstərildi.

Avropa ölkələrindən fərqli olaraq, Azərbaycanda maaş və pensiyalar artırıldı, dövlət sosial öhdəliklərini lazımi səviyyədə yerinə yetirdi, iqtisadi fəallıq ciddi şəkildə azalmadı. Dövlət əsaslı kapital qoyuluşlarının davam etdirilməsi də bu prosesdə öz rolunu oynadı.

**- 2012-ci ilin ilk rübündə Azərbaycanda qeyri-neft sektorunun inkişafında müəyyən artıma nail olunub. Təsadüfi deyildir ki, müxtəlif beynəlxalq maliyyə qurumları Azərbaycanın kredit reytinqini sabit saxlamışlar. Qeyri-neft sektorunun inkişaf perspektivlərini necə görürsünüz?**

- 1996-cı ildən Azərbaycan iqtisadiyyatı artan templə inkişaf edir. Həmin dövrdən 2004-cü ilədək ölkə iqtisadiyyatında təxminən 10% artım baş verib. Həyata keçirilən islahatlar 2004-cü ildən sonrakı dövrdə daha yaxşı nəticələr verib. Ölkə iqtisadiyyatında 25, 35 və 26% həddində artım müşahidə olunub. Sonrakı illərdə qlobal böhranın təsiri nəticəsində ümumi daxili məhsul istehsalında müəyyən azalma baş verib. Hökumət 2012-ci ildə ölkədə ümumi iqtisadi artımı 5,7% proqnozlaşdırır. Zaman keçdikcə ümumi daxili məhsulun artımında müəyyən azalmanın baş verməsi təbiidir. Bu, bir sıra obyektiv səbəblərlə yanaşı, həm də neft hasilatının nisbətən aşağı düşməsi ilə bağlıdır. Lakin demoqrafik artım səviyyəsini nəzərə alsaq, Azərbaycanda ÜDM-in artımı illik azı 4% təşkil etməlidir. Əks halda, iqtisadiyyatda staqnasiya baş verə bilər. Belə neqativ prosesin baş verməməsi üçün hökumət düzgün olaraq son illərdə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirir. Qeyri-neft sektorundan büdcəyə daxilolmaların ilin ilk rübündə 7,7% artması da bunun nəticəsidir.

Azərbaycan postsovet məkanında ikinci ölkədir ki, Estoniyadan sonra ümumi daxili məhsulun adambaşına düşən həcminə görə dünyada ilk əlli dövlət sırasına düşə bilər. Respublikamızın insan inkişafı indeksinə görə də bu nəticəni təkrarlamaq şansı var. Bu məqsədə nail olmaq üçün ÜDM-dəki illik 8-10%-lik artımı təmin etməliyik. Bunun üçün investisiyanın ÜDM-dəki nisbətinin 40%-dən çox olması tələb olunur. Söhbət investisiyalardan səmərəli istifadə yolu ilə qeyri-neft sektorunun inkişafının stimullaşdırılması tədbirlərinin genişləndirilməsindən gedir. Bu mənada, mən Vergilər Nazirliyinin son illərdəki fəaliyyətini müsbət qiymətləndirirəm. Vergilər Nazirliyi yeni dövrün tələblərinə uyğun çevik və səmərəli idarəçilik forması seçməklə, elektron xidmətləri genişləndirməklə həm vergitutma bazasını genişləndirir, həm də sahibkarlığın inkişafı üçün əlverişli mühitin formalaşması prosesində yaxından iştirak edir. Müsbət haldır ki, Azərbaycanda vergi ödəyicilərinə xidmətin səviyyəsi ildən-ilə yüksəlir.

**- Vergi ödəyicilərinə elektron xidmətlərin təşkili sahəsində həyata keçirilən islahatları necə dəyərləndirirsiniz?**

- Vergilər Nazirliyinin son illərdə həyata keçirdiyi mühüm islahatlardan biri də dövlət məmurları ilə iş adamları arasında birbaşa əlaqənin, təmasın aradan qaldırılmasıdır. Hazırda sahibkarlıq subyektləri elektron formada qeydiyyata alınır. Həm hüquqi, həm də fiziki şəxslərin vergi və rüsumları elektron formada ödəməsi üçün yaradılmış müasir sistem də normal səviyyədə işləyir.

***Vergilər Nazirliyi yeni dövrün tələblərinə uyğun çevik və səmərəli idarəçilik forması seçməklə, elektron xidmətləri genişləndirməklə həm vergitutma bazasını genişləndirir, həm də sahibkarlığın inkişafı üçün əlverişli mühitin formalaşması prosesində yaxından iştirak edir***

Elektron xidmətlərin çeşidinin artması məmur özbaşınalıqlarının, korrupsiyaya şərait yaradan halların qarşısını alır.

Nağdsız hesablaşmaların həcminin genişləndirilməsi, elektron dövriyyənin artırılması məqsədilə POS-terminalların quraşdırılması da bu istiqamətdə mühüm addımlardan biridir. İnanırıq ki, bu proses daha da genişlənərək yaxın vaxtlarda respublikanın bütün ticarət, iaşə və xidmət sahələrini əhatə edəcək.

**- Nağdsız ödəniş sisteminin Azərbaycanda tətbiqinin nə kimi üstünlükləri var?**

- Dünya ölkələrinin əksəriyyətində nağdsız ödənişlər ümumi dövriyyənin 70-80%-ni təşkil etdiyi halda, Azərbaycanda bu göstərici, hələ ki, 3-5% həcmindədir. Nağdsız ödəniş sistemindən istifadə, ilk növbədə, insanların rahatlığını təmin edir, onların külli miqdarda pulu nağd şəkildə saxlamasına ehtiyac qalmır. Eyni zamanda, bir çox dövlətlərdə valyutadəyişmə məntəqələri Azərbaycandakı kimi çox deyil, bu prosesin banklar vasitəsilə həyata keçirilməsi xeyli vaxt alır. Lakin plastik kartlara malik vətəndaşlarımız xaricdə olarkən belə problemlərlə üzləşmirlər. Yəni nağdsız ödənişlər xüsusən də xarici ölkələrdə əlavə narahatlıq yaradır.

Nadğsız ödənişlər həm də vergidən yayınma, korrupsiya hallarına qarşı səmərəli mübarizə vasitələrindən biridir. Elektron ödəniş zamanı hansısa məmur vətəndaşdan artıq pul tələb etmək imkanından məhrum olur. Bu üsulla həm də pul dövriyyəsinin strukturunu müsbət fonda dəyişmək olar. Çünki dövriyyədə nağd pulların artımı birbaşa inflyasiyaya təsir göstərən amildir.

Bu sahədə daha böyük nəticə əldə etmək üçün insanlar arasında geniş maarifləndirmə işi aparmalıyıq. Vergilər Nazirliyi və digər dövlət qurumları ilə yanaşı, kütləvi informasiya vasitələri, xüsusən radio və televiziyalar nağdsız ödənişlərin üstünlüklərini insanlara izah etməlidirlər. Mən bu işdə təmsil etdiyiniz qəzetin fəaliyyətini müsbət mənada vurğulamaq istərdim. «Vergilər» qəzeti Vergilər Nazirliyinin nağdsız ödənişlər sahəsindəki fəaliyyətinə adekvat şəkildə təbliğat və təşviqat, məlumatlandırma və maarifləndirmə işini həyata keçirməyə çalışır. Lakin təbii ki, bununla kifayətlənmək olmaz, sosial hadisə kimi bu məsələ geniş təbliğ olunmalıdır. Çünki nağdsız ödənişlər həm də dünyada yüksək mədəniyyət göstəricisi kimi qəbul olunur.

***«Vergilər» qəzeti Vergilər Nazirliyinin nağdsız ödənişlər sahəsindəki fəaliyyətinə adekvat şəkildə təbliğat və təşviqat, məlumatlandırma və maarifləndirmə işini həyata keçirməyə çalışır***

**- Belə təkliflər var ki, nağdsız ödəniş sisteminin inkişafı üçün Milli Məclisin müəyyən qanunlara dəyişiklik etməsinə ehtiyac var...**

- Azərbaycanda nağdsız dövriyyənin həcminin genişləndirilməsi istiqamətində addımlar hələ ki, davam edir. Proses yekunlaşdıqdan sonra bu istiqamətdə müəyyən addımlar atıla bilər. Yəni nağdsız dövriyyə həm inzibati yolla, həm də stimullaşdırıcı və maarifləndirici tədbirlərlə inkişaf etdirilməlidir. İnsanlar nağdsız ödənişlərin əhəmiyyətini tədricən başa düşüb özləri bu vasitədən istifadədə maraqlı olmalıdırlar. Eyni zamanda, bunun üçün müəyyən qanunlara dəyişikliklərin edilməsi, məsələn, nağdsız ödənişə görə bankların komisyon haqq tutmasını aradan qaldırmaq mümkündür. Ümumilikdə bu proses həm dövlətin, həm bankların, həm də vətəndaşların marağına uyğun olmalıdır.

**Samir MUSTAFAYEV**

# Uğurlu iqtisadi inkişafımız rəqəmlərdə

***Cari ilin yanvar-aprel aylarında əhalinin hər nəfərinə düşən gəlirləri 2011-ci ilin eyni dövrü ilə müqayisədə 12,6% artaraq 1068,6 manat və ya orta hesabla ayda 267,1 manat təşkil etmişdir. Adambaşına gəlirlərin artım sürəti istehlak qiymətlərinin bahalaşmasını 9,9% üstələmiş, başqa sözlə, əhalinin real gəlirləri 9,6% artmışdır.***

İlin ilk dörd ayı ərzində ölkə əhalisi tərəfindən əldə edilmiş 9,8 milyard manatlıq gəlirin 65,3%-i son istehlak xərclərinə, 9,1%-i vergilərə, sosial sığorta və könüllü üzvlük haqlarına, 2,2%-i kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 23,4%-i isə yığıma yönəldilmişdir.

Bütün icbari və könüllü haqlar ödənildikdən sonra əhalinin sərəncamında 8,9 milyard manat həcmində və ya əvvəlki ildəkindən 14,2% çox vəsait qalmışdır.

Azərbaycanda ümumi daxili məhsul istehsalı (ÜDM) da cari ilin ötən dörd ayı ərzində artmışdır: yanvar-aprel aylarını əhatə edən dövrdə ölkə iqtisadiyyatında 16,6 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 0,3% çox ÜDM istehsal edilmişdir.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, iqtisadiyyatın qeyri-neft sahələrində yaradılmış əlavə dəyərin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,5% artaraq 7,1 milyard manat və ya ÜDM-in 42,5%-ni təşkil etmişdir.

ÜDM-in 59,3%-i sənayedə, 2,5%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 6,7%-i tikintidə, 7%-i ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 4,9%-i nəqliyyat və anbar təsərrüfatında, 1,4%-i turistlərin yerləşdirilməsi və iaşə xidmətləri sahəsində, 1,7%-i informasiya və rabitə xidmətlərində, 10,3%-i sosial və digər xidmət sahələrində istehsal edilmiş, 6,2 %-i məhsula və idxala xalis vergilərin payına düşmüşdür.

Bu dövrdə tikintidə əlavə dəyər real ifadədə 22%, turistlərin yerləşdirilməsi və iaşə xidmətləri sahəsində 17,3%, informasiya və rabitə xidmətlərində 13,2%, ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində 9,1%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 4,5% artmışdır.

Mədən sənayesində əlavə dəyər istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,7% azalsa da, emal sənayesində 15,5%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 5,6%, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində 5% artım müşahidə edilmişdir.



Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

## Rakurs

# İdeal vergi sistemi

İqtisadi nəzəriyyədə tez-tez «ideal vergi sistemi», «arzu olunan vergi sistemi», «humanitar cəmiyyətin vergi sistemi» və s. kimi ifadələrə rast gəlinir. Təbii ki, ideal cəmiyyət mövcud olmadığı kimi, ideal vergi sistemi də mövcud deyil. İdeal vergi sisteminin nəzəri prinsipləri, sadəcə, mövcud vergi sisteminin hansı istiqamətdə inkişaf etdirilməli və təkmilləşdirilməli olduğunu göstərir.

Nəzəri olaraq ideal vergi sistemi, əsasən, aşağıdakı prinsiplərlə xarakterizə olunur:

1) ***Ədalətlilik prinsipi*** vergi yükünün əhalinin hər hansı bir qrupu üçün xeyli ağır, digərləri üçün isə xeyli asan olması hallarına yol verilməməsi ilə bağlıdır.
2) ***Şəxsiyyətin prioriteti prinsipi*** vergi sistemi ilə hər bir vətəndaş üçün bərabər imkanların yaradılmasının təmin edilməsini nəzərdə tutur.
3) ***Səmərəlilik və neytrallıq prinsipi*** vergilərin azad rəqabət şəraitinə uyğun olaraq bazarda təşəkkül tapmış münasibətlərin mümkün qədər az təhrif etməsini nəzərdə tutur (dövlət müdaxiləsinin əsaslı olduğu xarici təsirlər istisna olmaqla).
4) ***Elastiklik prinsipi*** vergitutma sisteminin iqtisadi konyunkturun dəyişməsinə reaksiya verməsi ilə bağlıdır.
5) ***Siyasi məsuliyyət prinsipi*** vergi ödəyicilərinin vergi ödəmələrinin mahiyyətinin və ödənilən vergilərin istifadə olunma istiqamətlərinin dərk etmələrini nəzərdə tutur.
6) ***İnzibatçılığın sadəliyi prinsipi*** vergi sisteminin inzibati xərclərin az olması, şəffaflığı və vergilərdən yayınmanın çətinliyi ilə səciyyələnməsinə şərait yaradır.

İdeal vergi sisteminin bu prinsipləri dünyanın, demək olar ki, bütün qabaqcıl vergi sistemlərində bu və ya digər formada öz əksini tapmışdır.

Azərbaycan Respublikasında vergitutmanın əsasları Vergi Məcəlləsinin 3-cü maddəsi ilə müəyyən edilmişdir. Bu maddəyə əsasən, vergilər haqqında qanunvericilik vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanmalıdır. Qeyd olunan prinsip ideal vergi sisteminin ədalətlilik prinsipində olduğu kimi vergi yükünün bərabər paylanılmasını nəzərdə tutur və qanunvericiliyin pozulması ilə bağlı məsuliyyətə cəlb olunma məsələlərində ədalətliliyi təmin edir.

Vergi Məcəlləsi ilə müəyyən olunmuş əsas prinsiplərdən biri vergilərin siyasi, ideoloji, etnik, konfessional və vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilə və diskriminasiya xarakteri daşıya bilməzliyi ilə bağlıdır. Bu prinsipə əsasən, vergitutma elə tərzdə qurulmalıdır ki, vergi öhdəliklərinin yerinə yetirilməsində müxtəlif vətəndaşlar üçün fərqli imkanlar yaradılmasın. İdeal vergi sisteminin şəxsiyyətin prioriteti prinsipinin də əsas məqsədi bundan ibarətdir.

*Vergi sistemi sahibkarlıqda azad rəqabət üçün məhdudiyyətlər yaratmamalı və sahibkarlıq fəaliyyətinə investisiya qoyuluşları üçün əlverişli şəraitin yaradılmasını təmin etməlidir*

Sahibkarlıq və investisiya fəaliyyətinin təşviq edilməsi barədə prinsipə əsasən, vergi sistemi sahibkarlıqda azad rəqabət üçün məhdudiyyətlər yaratmamalı və sahibkarlıq fəaliyyətinə investisiya qoyuluşları üçün əlverişli şəraitin yaradılmasını təmin etməlidir. İdeal vergi sisteminin səmərəlilik və neytrallıq prinsipi də təşəkkül tapmış normal bazar münasibətlərinin, o cümlədən azad rəqabətin qorunmasının təmin edilməsini nəzərdə tutur.

İdeal vergi sisteminin vergilərin mövcud iqtisadi şəraitə uyğunlaşdırılmasını nəzərdə tutan elastiklik prinsipi ilə əlaqədar onu qeyd etmək olar ki, Vergi Məcəlləsində də bunu təmin edən müddəalar öz əksini tapmışdır. Məcəllə ilə müəyyən edilmişdir ki, hər il Azərbaycan Respublikasının dövlət büdcəsi müəyyən edilərkən vergilərin dərəcələrinin yenidən müəyyən edilməsi məsələsinə baxıla bilər. Bu zaman vergilərin müəyyən olunmasına dair dəyişikliklərlə bağlı normaların tətbiqi Vergi Məcəlləsinə dəyişiklik edilməklə həyata keçirilir.

İdeal vergi sisteminin vergi ödəmələrinin mahiyyətinin və ödənilən vergilərin istifadə olunma istiqamətlərinin dərk edilməsinə dair siyasi məsuliyyət prinsipi Azərbaycan Respublikasında, demək olar ki, dövlət büdcəsinin gəlirlərinin formalaşmasında və xərclənməsində şəffaflığın təmin olunması ilə yerinə yetirilir. Büdcə haqqında qanunvericiliyə uyğun olaraq, dövlət büdcəsinin gəlirləri (o cümlədən vergi daxilolmaları) və xərcləri barədə məlumatlar mətbuatda hər il geniş və ətraflı şəkildə işıqlandırılır.

Vergi sistemində inzibati xərclərin az olmasını, şəffaflığı və vergilərdən yayınmanın çətinliyini nəzərdə tutan prinsipə Vergi Məcəlləsinin vergilərin iqtisadi cəhətdən əsaslandırılmasına, vergi ödəyiciləri üçün vergi qanunvericiliyi ilə azad tanış olmaq imkanlarının yaradılmasına və vergi qanunvericiliyinin pozulmasına görə qanunvericilik aktları ilə müvafiq məsuliyyət tədbirlərinin görülməsinə dair müddəaları uyğun gəlir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın vergi sisteminin prinsipləri təkcə yuxarıda qeyd olunanlarla bitmir. Vergi Məcəlləsində digər prinsiplər də nəzərdə tutulmuşdur ki, onlar da vergi sisteminin ideal vergi sisteminə uyğunlaşdırılması məqsədini daşıyır. Bunlara Vergi Məcəlləsinin 3-cü maddəsində göstərilən heç bir şəxsin əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməzliyi, hər kəsin hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunu dəqiq bilməsi və qanunvericilikdəki bütün ziddiyyətli məqamların vergi ödəyicisinin xeyrinə şərh edilməsi barədə prinsipləri aid etmək olar.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### POS-terminalların quraşdırılması üçün hansı şərtlər tələb olunur?

- «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanunun 17-ci maddəsinə əsasən, ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün müvafiq POS-terminallar quraşdırılmalıdır.

«Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli sərəncamının 1.2.1-ci bəndinin icrası ilə əlaqədar Nazirlər Kabinetinin 18 fevral 2006-cı il tarixli qərarı ilə «Azərbaycan Respublikasının ərazisində POS-terminalların istismar və istifadə edilməsi Qaydaları» təsdiq edilmişdir.

Qaydaların 4-cü bəndinə müvafiq olaraq POS-terminalın quraşdırılması üçün:

- təsərrüfat subyekti istənilən bank ekvayerə müraciət edərək onunla xidmət haqlarını, fəaliyyət prinsiplərini və s. əks etdirən müqavilə bağlayır. Bu müqaviləyə əsasən, POS-terminalın mülkiyyətçisi bank ekvayer və yaxud təsərrüfat subyekti ola bilər;
- bank ekvayer terminalın istifadəçisinə təsərrüfat subyektinin fəaliyyət növündən asılı olaraq terminalda ödəniş kartları vasitəsilə əməliyyatların aparılması, beynəlxalq kartların xüsusiyyətləri və saxta kartların müəyyənləşdirilməsi üzrə tədris kursları təşkil edir və terminalın istifadəçisini gündəlik əməliyyatların aparılmasına dair yazılı təlimatla təmin edir;
- bank ekvayer terminalın quraşdırılması və terminala xidmət göstərilməsinə dair xidmət mərkəzi ilə müqavilə bağlayır və quraşdırılacaq terminalın istehsalçısı tərəfindən verilmiş və Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş sertifikatın surətini xidmət mərkəzinə təqdim edir;
- xidmət mərkəzi terminalın quraşdırıldığı vaxtdan etibarən bir iş günü müddətində Mərkəzi Bank və Vergilər Nazirliyi tərəfindən müəyyən edilən məlumatları qeydiyyat nömrəsinin alınması üçün Vergilər Nazirliyinə göndərir;
- Vergilər Nazirliyi bir iş günü müddətində terminalın qeydiyyat nömrəsini xidmət mərkəzinə göndərir;
- qeydiyyat nömrəsi alındıqdan sonra xidmət mərkəzi aşağıda göstərilənlər barədə məlumatları özündə əks etdirən terminalın qeydiyyat vərəqəsini bank ekvayerə iki iş günü müddətində göndərir: təsərrüfat subyektinin adı və kodu; POS-terminalın yerləşdiyi ünvan; ekvayerin adı; terminalın seriya nömrəsi; terminala Vergilər Nazirliyi tərəfindən verilən qeydiyyat nömrəsi;
- bank ekvayer xidmət mərkəzindən aldığı terminalın qeydiyyat vərəqəsinin əslini üç iş günü müddətində təsərrüfat subyektinə göndərir;
- təsərrüfat subyekti qeydiyyat vərəqəsini aldıqdan sonra terminalda əməliyyatların aparılmasına başlanılır;
- terminalın digər terminala dəyişdirilməsi və ya əlavə terminal quraşdırılması üçün yeni terminal Qaydalarda nəzərdə tutulmuş formada qeydiyyatdan keçirilməlidir;
- təsərrüfat subyekti ləğv olunduğu halda, xidmət mərkəzi terminala verilmiş qeydiyyat nömrəsinin etibarsız hesab edilməsi barədə Vergilər Nazirliyinə məlumat göndərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2006-cı il tarixli qərarı ilə «POS-terminalların quraşdırılması məqsədəmüvafiq hesab edilən pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrinin müəyyənləşdirilməsi meyarları» təsdiq edilmişdir. Müəyyənləşdirilmiş meyarlara əsasən, aylıq dövriyyəsi 1000 manatdan çox olan bütün pərakəndə ticarət, iaşə və digər xidmətlər göstərən müəssisələrdə, eləcə də dövriyyədən asılı olmayaraq, Bakı şəhərinin Səbail, Nəsimi, Yasamal və Nərimanov rayonlarında yerləşən pərakəndə ticarət, iaşə və digər xidmətlər göstərən müəssisələrdə, həmçinin avtomobil və mebel satışı üzrə ixtisaslaşdırılmış ticarət, iaşə və digər xidmətlər göstərən müəssisələr, idman və sağlamlıq kompleksləri, yanacaqdoldurma məntəqələri, hava, su, dəmir yolu və avtomobil nəqliyyatı vasitələri ilə şəhərlərarası və beynəlxalq sərnişindaşımada biletlərin satışını həyata keçirən kassalar, mərkəzi poçt şöbələrində POS-terminalların quraşdırılması məqsədəmüvafiq hesab edilmişdir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya bu elektron poçt ünvanlarına göndərə bilərsiniz: **s.musayeva@taxes.gov.az**, **anar.eliyev@taxes.gov.az**

# Neft gəlirlərinin idarə olunması mexanizmləri təkmilləşir

*«...Bu gün Dövlət Neft Fondunun investisiya və yerləşdirmə portfeli də genişlənir. Bu, təbiidir. Necə ki, biz ölkə iqtisadiyyatını şaxələndiririk, yeni sahələrə üstünlük veririk, strateji valyuta ehtiyatlarımız da həm əmniyyətli, həm də daha səmərəli şəkildə lazım olan sahələrə qoyulmalıdır».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2011-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «2012-ci il üçün Azərbaycan Respublikası Dövlət Neft Fondunun investisiya siyasəti» proqramı əsasında neft gəlirlərinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi qaydalarına edilmiş dəyişikliklər Fondun daha çevik və səmərəli fəaliyyət mexanizmlərinin formalaşmasını təmin edib. 2012-ci ilin ilk rübündə valyuta vəsaitlərinin təhlükəsiz saxlanılması və səmərəli idarə edilməsi nəticəsində Fondun gəlirləri əhəmiyyətli dərəcədə artıb.

Ekspertlərin fikrincə, son illərdə Fondun gəlirlərinin dinamik artımı qurumun mümkün risklərə dözümlülüyünü də artırıb və yeni investisiya siyasəti seçməsinə imkan yaradıb. Yeni strategiya çərçivəsində daha şaxələndirilmiş investisiya siyasətinin, o cümlədən yeni investisiya alətlərinin tətbiqi nəzərdə tutulur. Yəni mühafizəkar yanaşmadan kənara çıxmaqla nisbətən riskli və daha yüksək gəlirli investisiya alətlərindən istifadəyə üstünlük verilir.




Dövlət Neft Fondundan bildirilir ki, dəyişikliklərə əsasən, bu ildən səhmlərə, daşınmaz əmlaka və qızıla investisiya qoyulması nəzərdə tutulub. İl ərzində Fondun investisiya portfelinin məcmu dəyərinin minimum 85%-nin borc öhdəlikləri və pul bazarı alətlərinə, 5%-nin səhmlərə, 5%-nin daşınmaz əmlaka, 5%-nin qızıla yatırılması nəzərdə tutulur. Səhmlərə investisiyalar hələlik xarici menecerlər vasitəsilə yönəldiləcək və bununla bağlı müvafiq tender elan olunacaq. İnvestisiya portfelinin məcmu dəyərinin 5%-ə qədərinin qızıla investisiya edilməsi məqsədilə Fond 1 fevral 2012-ci il tarixdən London Qiymətli Metallar Bazarı İştirakçıları Assosiasiyasının market-meyker üzvü olan banklardan qızıl külçələrinin alışına başlayıb. 2012-ci ilin ilk rübündə alınmış qızılın miqdarı 2 ton 804 kq (90143 unsiya) təşkil edib.

Sözügedən fərmanla aktivlərinə investisiya portfelinin vəsaitləri yerləşdiriləcək ölkələrin siyahısı da genişləndirilib. 2012-ci ildən ARDNF-nin investisiya portfelinin vəsaiti «Böyük 7-lər»in (ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Kanada və Yaponiya), Avropa Valyuta Birliyinə daxil olan ölkələrin, Rusiya və Türkiyənin, həmçinin uzunmüddətli öhdəliklər üzrə «A» («Standard & Poor's», «Fitch») və ya «A2» («Moody's») kredit reytinqindən aşağı olmayan reytinqə malik olan ölkələrin valyutalarında ifadə olunmuş aktivlərə yerləşdirilə bilər.

Neft Fondunun vəsaitlərinin idarə olunması ilə bağlı xarici menecerlər üzrə də yeni tələblər müəyyən edilib. Həmin tələblərə əsasən, xarici menecerlərə idarəetməyə verilən vəsaitin ümumi həcmi investisiya portfelinin məcmu dəyərinin 60%-dən, bir xarici menecerə idarəetməyə verilən vəsaitin maksimum həcmi investisiya portfelinin məcmu dəyərinin 5%-dən artıq olmamalıdır. Neft Fondunun «RAMP» proqramı çərçivəsində Dünya Bankının xəzinədarlığına idarəetməyə verilən vəsaitinin həcmi isə 500 mln. ABŞ dollarından çox ola bilməz.

2012-ci il üzrə Neft Fondunun investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri 23 milyard manat götürülür. Ümumilikdə 2012-ci ilin yanvar-mart ayları ərzində Fondun aktivləri 8,6% artaraq 32 milyard 359,4 milyon ABŞ dollarına çatıb. Rüb ərzində vəsaitlərin idarə olunmasından əldə olunan gəlirlər 234,5 milyon manat təşkil edib.

Yeni investisiya siyasəti Fondun fəaliyyətini genişləndirməklə özəl sektorun inkişafı üçün də münbit zəmin formalaşdırır. 27 sentyabr 2004-cü il tarixli fərmanla təsdiq edilmiş «Neft və qaz gəlirlərinin istifadə olunması üzrə uzunmüddətli strategiya»-da da neftdən qazanılan vəsaitlərin qeyri-neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastrukturun müasirləşdirilməsində, «insan kapitalı»nın formalaşmasında və digər bu kimi istiqamətlərdə istifadə olunması nəzərdə tutulub. İndiyədək Fondun vəsaitlərindən bir sıra mühüm investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə istifadə olunub. Bu sırada Samur-Abşeron suvarma sisteminin yenidən qurulması və Azərbaycana böyük iqtisadi dividentlər vəd edən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin maliyyələşdirilməsi layihələrini xüsusi qeyd etmək olar. Eləcə də «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsi ölkədə güclü insan kapitalının formalaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

İqtisadçı ekspertlərin fikrincə, Neft Fondu vəsaitlərinin istifadə strategiyasının təkmilləşdirilməsi nəticə etibarı ilə ölkədə bank sektorunun likvidliyinin artımına, qeyri-neft sektoruna investisiya qoyuluşlarının həcminin yüksəlməsinə və qiymətli kağızlar bazarının inkişafına təkan verə bilər. Fondun vəsaitlərinin müəyyən qisminin Azərbaycanın yüksək reytinqli banklarının vasitəsilə özəl sektora yönəldilməsi də makroiqtisadi sabitliyin təmin edilməsi nöqteyi-nəzərindən əhəmiyyətli hesab olunur.

**Samir MUSTAFAYEV**

# Regionlar üzrə vergi daxilolmalarının həcmi artır

*Azərbaycanda özəl sektorun, xüsusilə qeyri-neft sektorunun inkişafının bariz göstəricilərindən biri 2012-ci ilin ilk rübündə regionlar üzrə vergi daxilolmalarının 13,3% artaraq 110 milyon manata çatmasıdır. Hesabat dövründə ümumi vergi daxilolmalarının 8%-i, qeyri-neft sektoru üzrə daxilolmaların 14%-i bölgələrin payına düşüb. Müqayisə üçün bildirək ki, birinci Dövlət Proqramının icrasına start verilənədək icmal büdcənin tərkibində regionlar üzrə vergi daxilolmalarının payı cəmi 3,2%, ikinci Dövlət Proqramına qədər isə 5,5% təşkil edirdi.*

Nazirlər Kabinetinin 2012-ci ilin ilk rübünün sosial-iqtisadi inkişafının yekunları ilə bağlı iclasında açıqlanan statistik rəqəmlər bazar mexanizminin hərəkətverici qüvvəsi sayılan sahibkarlığın regionlarda da sürətli inkişafından xəbər verir. Son illərdə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması nəticəsində bölgələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı əhəmiyyətli dərəcədə artıb.

**_Son illərdə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması nəticəsində bölgələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı əhəmiyyətli dərəcədə artıb_**

İqtisadçı ekspertlər ilin ilk rübündə regionlar üzrə vergi daxilolmalarının dinamikasında müşahidə olunan artımı, ilk növbədə, regionların sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramları ilə izah edirlər. Konkret olaraq, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı və Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı regionların davamlı və tarazlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektoru hesabına aradan qaldırılması sahəsində kompleks tədbirlər müəyyənləşdirib.

Ümumilikdə, 2004-2011-ci illərdə regionların inkişafına bütün maliyyə mənbələri hesabına 21,5 milyard vəsait yönəldilib, təkcə 2011-ci ildə bu rəqəm 6 milyard dollara çatıb. Həmin vəsaitlərin bir qisminin regionlarda kiçik və orta sahibkarlığın inkişafı nöqteyi-nəzərindən zəruri olan müasir infrastrukturun təkmilləşdirilməsinə və inkişafına yönəldilməsi də əməli nəticələrini göstərib. Nəticədə regionlarda formalaşmış əlverişli biznes mühiti 2012-ci ilin ilk rübündə ölkə iqtisadiyyatına yatırılan investisiyaların ümumi artımını təmin edib. Bu müddətdə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2 milyard 099,4 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16,5% çox vəsait yönəldilib. Əsas kapitala yönəldilmiş vəsaitin 72,8%-i daxili investisiyanın, 27,2%-i isə xarici investisiyanın hesabına formalaşdırılıb.

İqtisadi İnkişaf Nazirliyinin sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Zaur Qasımov regionlar üzrə vergi daxilolmalarının həcminin artımını sahibkarlığın inkişafı tədbirlərinin nəticəsi kimi qiymətləndirir. O, hesab edir ki, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, elektron xidmətlərin genişləndirilməsi və digər tədbirlər regionlarda sahibkarlığın inkişafına əsaslı təkan verib: «Sahibkarların vergi yükü azaldılıb, o cümlədən mənfəət vergisinin dərəcəsi 22%-dən 20%-ə, fiziki şəxslərin gəlir vergisi 35%-dən 20%-ə endirilib, elektron vergi hesab-fakturalarının tətbiqinə başlanılıb. Elektron xidmətlərin tətbiqi genişləndirilib, kənd təsərrüfatı məhsullarının istehsalçıları 2014-cü ilədək torpaq vergisindən başqa, bütün növ vergilərdən azad olunub».

Z.Qasımov hesab edir ki, sahibkarlıq subyektlərinin qeydiyyatında «bir pəncərə» prinsipinin tətbiqi və sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsinin səmərəli mexanizmi də bu prosesə əlavə təkan verib. Güzəştli kreditlərdən istifadə qaydalarının mütəmadi olaraq təkmilləşdirilməsi nəticəsində sahibkarlıq subyektlərinə verilən kreditlərin ümumi həcmi artıb və iş adamlarının kreditlərə çıxış imkanları daha da genişlənib. Nəticədə ÜDM-in həcmində özəl sektorun payı 80%-i ötüb. Aqrar sektor, sənaye, ticarət, mehmanxana və iaşə xidməti, tikinti, nəqliyyat, rabitə kimi istehsal və xidmət sahələrində qeyri-dövlət bölməsinin payı isə 70-99% arasında dəyişir.

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 2011-ci il 23 may tarixli fərmanının icrası ilə əlaqədar olaraq, biznes mühitinin yaxşılaşdırılması məqsədilə ötən ilin ortalarından fiziki şəxslərin, bu ilin əvvəlindən isə hüquqi şəxslərin internet vasitəsilə elektron qeydiyyatına başlanılıb. Nağdsız ödənişlərin genişləndirilməsi məqsədilə artıq vergi və rüsumların da büdcəyə elekron formada ödənilməsinə başlanılıb.

2012-ci ilin birinci rübündə 11 mindən yuxarı sahibkar elektron qaydada qeydiyyata alınıb ki, bu da ümumi qeydiyyatın 60%-ni təşkil edib. Yeni sahibkarlıq subyektləri daha çox Aran, Gəncə-Qazax, Şəki-Zaqatala, Yuxarı Qarabağ və Lənkəran iqtisadi rayonlarında qeydiyyata alınıb. Ötən ilin müvafiq dövrünə nisbətən qeydiyyata alınmış obyektlərin sayı 2,7 dəfə, sahibkarlıq subyektlərinin sayı 30,6%, o cümlədən xarici investisiyalı sahibkarlıq subyektlərinin sayı 4,8% artıb. Qeydiyyata alınan sahibkarlıq subyektlərinin 57,5%-nin regionların payına düşməsi də regional inkişaf proqramlarının uğurlu nəticəsidir.

**S.MUSTAFAYEV**

# Nəqliyyat vasitələrinin qeydiyyatı «bir pəncərə» prinsipi ilə aparılacaq

***30 dəqiqə ərzində nəqliyyat vasitəsi qeydiyyata alına biləcək...***

Artıq nəqliyyat vasitələrinin dövlət qeydiyyatının və daimi uçota alınmasının, qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanının verilməsi «bir pəncərə» prinsipi əsasında təşkil ediləcək. Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli qərarı ilə təsdiq edilmiş «Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə»də edilən dəyişiklik buna imkan yaradır. Nazirlər Kabinetinin qərarına əsasən, əsasnamədə nəzərdə tutulmuş dövlət rüsumu və vergilər yalnız bank, poçt, plastik kart və ya internet vasitəsilə ödənilə bilər. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan orqanlar nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs tərəfindən müvafiq sənədlər verildiyi və nəqliyyat vasitəsinin mühərrik, ban və şassi nömrələri, habelə rəngini tutuşdurmaq məqsədilə müayinəyə təqdim edildiyi vaxtdan 30 dəqiqə ərzində nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılmasını və onun daimi uçota alınmasını, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsini həyata keçirməlidirlər. Dəyişikliyə qədər isə həmin vaxt 1 gün müəyyən edilmişdi. Nəqliyyat vasitəsinin dövlət qeydiyyatı və daimi uçota alınması, qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsi, habelə nəqliyyat vasitəsinin müayinəsi ilə bağlı hərəkətlər iş günü ərzində fasiləsiz olaraq həyata keçirilir. Nəqliyyat vasitəsinin müayinəsi növbələrin yaranmasını istisna edən şəraitdə xüsusi avadanlıqlarla təchiz olunmuş yerlərdə aparılır.

Qeyd edilir ki, nəqliyyat vasitəsinin sahibi və ya ona sərəncam vermək hüququ olan digər şəxs nəqliyyat vasitəsinin dövlət qeydiyyatı və daimi uçota alınması, qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının alınması ilə bağlı dövlət qeydiyyatını həyata keçirən orqanlara internet vasitəsilə elektron formada da müraciət edə bilər. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını həyata keçirən orqan müraciət etmiş şəxslərin qəbul edilməsi ardıcıllığının tənzimlənməsi üçün «Elektron növbə» idarəetmə sistemi vasitəsilə həmin şəxslərin növbəsini müəyyən edir və bu barədə onlara eyni qaydada məlumat verir. Nəqliyyat vasitələrinin dövlət qeydiyyatını həyata keçirən orqanın rəsmi internet informasiya ehtiyatında yaradılmış elektron xidmət bölməsində dövlət qeydiyyatının həyata keçirilməsi üçün tələb olunan sənədlərin dəqiq siyahısının və müvafiq sənədlərin elektron formasının yerləşdirilməsi, habelə sənədlərin elektron formada qəbul edilməsi təmin olunur. Müraciət edən şəxs müəyyən edilmiş qaydada doldurulmuş ərizəni və digər sənədlərin skan edilmiş surətlərini elektron formada dövlət qeydiyyatını həyata keçirən orqana təqdim edə bilər. Sənədlərin skan edilmiş surətlərinin həqiqiliyi dövlət qeydiyyatını həyata keçirən orqanın vəzifəli şəxsində şübhə yaratdıqda, müvafiq sənədlər barədə məlumat əldə etmək üçün dövlət orqanları tərəfindən aparılan elektron informasiya ehtiyatlarından istifadə edilir, bu mümkün olmadığı halda isə müraciət etmiş şəxslərdən həmin sənədlərin əsli tələb olunur.

Nəqliyyat vasitəsinin icarəyə verilməsinə dair müqaviləni, yaxud nəqliyyat vasitəsindən istifadə olunması və ya ona dair sərəncam verilməsi hüquqları ilə bağlı etibarnaməni təsdiq edərkən, notarius müqavilənin və ya etibarnamənin təsdiq edilməsi barədə məlumatı dərhal Ədliyyə Nazirliyinə, o da öz növbəsində texniki vasitələrdən istifadə etməklə, həmin məlumatı 3 gün müddətində Daxili İşlər Nazirliyinə göndərir. Daxil olmuş məlumat əsasında Daxili İşlər Nazirliyi 3 gün müddətində nəqliyyat vasitəsinin təkrar dövlət qeydiyyatını həyata keçirir və müvafiq məlumatı daşınar əmlakın rəsmi reyestrinə daxil edir.

**AYTƏN**

# Azərbaycanın beynəlxalq nüfuzu daha da yüksəlir

*Dünyanın ən nüfuzlu nəşrlərindən olan «The Business Year» jurnalının «Azerbaijan 2012» xüsusi buraxılışında respublikamızın dünyada artan nüfuzundan, iqtisadi və siyasi cəhətdən əldə etdiyi nailiyyətlərdən, həyata keçirilən kompleks islahatların səmərəliliyindən bəhs edən məqalələrə geniş yer verilib. Jurnalda Azərbaycan iqtisadiyyatının inkişafı, siyasi-sosial sahədə baş verən mühüm dəyişikliklər, ölkəmizin dünya dövlətlərinin enerji təminatında mühüm rolu və digər məsələlər barədə məqalə və müsahibələr dərc olunub. Qeyd edək ki, «The Business Year» 2011-ci ildə də Azərbaycana ayrıca buraxılış həsr etmişdi.*

## *«The Business Year»: Həyata keçirilən islahatlar Azərbaycanın beynəlxalq nüfuzunun və reytinqinin yüksəlməsinə zəmin yaradıb*

Bu jurnalın ölkəmizdəki iqtisadi inkişafa geniş yer ayırması təsadüfi deyil. Azərbaycanın düşünülmüş iqtisadi siyasət həyata keçirməsi sayəsində əldə etdiyi mühüm uğurlar, yüksək makroiqtisadi nailiyyətlər, sistemli və köklü islahatların reallaşması nəticəsində bütün sektorlarda müşahidə olunan müsbət meyillər, şəffaf biznes mühiti, rəqabətliliyin möhkəmlənməsi, insan inkişafı indeksi, həmçinin digər amillər jurnalın xüsusi tədqiqat mövzusuna çevrilən başlıca parametrlərdir. Nəşrdə qeyd olunur ki, Azərbaycanda həyata keçirilən davamlı iqtisadi islahatlar respublikamızın beynəlxalq miqyasda nüfuzunun və reytinqinin yüksəlməsinə əhəmiyyətli zəmin yaradıb. İslahatların dinamikliyi sayəsində ölkənin beynəlxalq kredit reytinqi son illər davamlı olaraq artır.

Qeyd etmək yerinə düşər ki, «The Business Year» dünyanın ən nüfuzlu və inkişaf etmiş ölkələrinə xüsusi buraxılışlar həsr edir. Jurnal dünyada ciddi biznes və iqtisadi tərəfdaş, sosial, mədəni, turizm, İKT və digər sahələrdə sanballı inkişafa nail olmuş dövlətlərin ictimai-siyasi, iqtisadi-sosial həyatına böyük yer verir. Nəşr hər hansı ölkə barədə xüsusi buraxılış hazırlayarkən dünyanın ən mötəbər iqtisadi tədqiqat mərkəzlərinin, reytinq agentliklərinin hesabatlarını, rəy sorğularını nəzərə alır. Son bir ildə «Moody`s», «Fitch», «Standard & Poors» kimi beynəlxalq reytinq agentlikləri tərəfindən Azərbaycana verilmiş yüksək investisiya reytinqi və digər müsbət rəylər də «The Business Year»in ölkəmizin inkişafına xüsusi yer ayırmasında müstəsna rol oynayıb.

«The Business Year» jurnalının əməkdaşlarının qənaətinə görə, Azərbaycan hökuməti ölkədə makroiqtisadi sabitliyin saxlanması, milli iqtisadi potensialın artırılması, neft sektoru amilinin azalması və qeyri-neft sektorunun inkişafı, əlverişli investisiya və biznes mühitinin yaradılması siyasəti yürüdür. Azərbaycan iqtisadiyyatı dünya maliyyə-iqtisadi böhranına uğurla tab gətirib və artım tendensiyasını saxlayıb. Son illər ərzində məhz qeyri-neft sektorunun artımı ümumi iqtisadi artımı təmin edib. Həyata keçirilən iqtisadi strategiya siyasi və iqtisadi sabitlik üçün dərin əsaslar yaradıb, inkişafı sürətləndirib, ölkədə güclü maliyyə resursları formalaşıb. Xarici ticarət dövriyyəsindəki müsbət meyillər, neft ixracının coğrafiyasının genişlənməsi ilə yeni marşrutların istifadəyə verilməsi və yanacaq resurslarının nəqlinin çoxalması, qeyri-neft sektorunun valyuta tutumlu sahəyə çevrilməsi Azərbaycanın mövqeyini möhkəmləndirib.

İndi respublikamızda milli valyuta ehtiyatlarının artım dinamikası üçün əlverişli zəmin yaradılıb. Hazırda Azərbaycan güclü maliyyə-valyuta ehtiyatlarına malik dövlət kimi qəbul olunur. Ölkə başçısının qeyd etdiyi kimi, neft-qaz sektorundan daxil olan milli gəlirlərin yüksək peşəkarlıqla idarə olunması həm inkişafı sürətləndirir, həm də valyuta ehtiyatlarımızın artmasına əlverişli stimul verir. Hazırda strateji valyuta ehtiyatları 43 milyard dolları ötən ölkəmizin maliyyə rezervləri uzunmüddətli iqtisadi inkişaf üçün güclü təməl təşkil edir. Respublikamızın valyuta ehtiyatlarının həcmi dövlət borcunu dəfələrlə üstələyir ki, bu da davamlı və uzunmüddətli layihələrin maliyyələşməsi üçün zəruridir. Güclü maliyyə ehtiyatları iqtisadi və sosial hədəflərə çatmağa imkan verir.

«The Business Year» jurnalında qeyd olunur ki, Azərbaycan bölgədə potensial sərmayədar ölkə kimi çıxış edir. Bütün bunlarla yanaşı, Azərbaycanın əlverişli sərmayə mühitini təmin etməsi xarici dövlətlərin investorlarının ölkəyə axınını da sürətləndirib, investisiya fəallığına əlverişli zəmin yaradıb. Jurnalın analitiklərinin fikrincə, Azərbaycanın investisiya imkanları çox cəlbedicidir. Bu, xarici sərmayə qoyuluşlarının artım dinamikası üçün əlverişli imkanlar yaradır. Analitik qrupun şərhində qeyd olunur ki, investisiya sahəsində həyata keçirilən tədbirlər və bu bölmədə sərmayə cəlbediciliyinin yüksəldilməsi Azərbaycanın maliyyə sabitliyinin möhkəmlənməsinə təkan verib, xarici investorların ölkəyə marağının artmasına zəmin yaradıb. Bunun sayəsində dünyanın ən inkişaf etmiş dövlətləri Azərbaycanda dəyəri milyard dollarla ölçülən iri layihələr həyata keçirirlər. Hazırda Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 80%-dən çoxunu təşkil edir.

**Elbrus CƏFƏRLİ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Baxış bucağı

# Məcburi auditdən keçməli olan təsərrüfat subyektləri

**«Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin ikinci abzasında göstərilir ki, audit yoxlaması məcburi və ya könüllü (təsərrüfat subyektinin öz təşəbbüsü ilə) ola bilər.**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 99.2-ci maddəsində göstərilir ki, açıq səhmdar cəmiyyəti illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün hər il dərc etməyə borcludur. Həmçinin bu Məcəllənin 100.3-cü maddəsində göstərilir ki, qapalı səhmdar cəmiyyəti bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədləri (maliyyə hesabatlarını) hamının tanış olması üçün dərc etməyə borcludur. Eyni zamanda, həmin Məcəllənin 107-ci maddəsi üzrə (səhmdar cəmiyyətində idarəetmə) 107.6-cı maddəsində göstərilir ki, bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədlərin dərci zamanı səhmdar cəmiyyəti illik maliyyə hesabatının yoxlanılması üçün əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditoru cəlb etməyə borcludur. Nizamnamə kapitalında məcmu payı on faiz və ya daha çox olan səhmdarların tələbi ilə səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışı hər bir vaxt keçirilməlidir.

Təşkilati hüquqi forması Məhdud Məsuliyyətli Cəmiyyət olan təsərrüfat subyektləri ilə bağlı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 91-ci maddəsi üzrə (Məhdud məsuliyyətli cəmiyyətdə idarəetmə) 91.4-cü maddəsində göstərilir ki, «Məhdud məsuliyyətli cəmiyyət illik maliyyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir (kənar audit). Cəmiyyətin illik maliyyə hesabatının auditor yoxlanışı hər hansı iştirakçının tələbi ilə də aparıla bilər. Bu halda auditor yoxlanışı həmin yoxlamanı tələb edən iştirakçının hesabına aparılır. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydası qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir». Göründüyü kimi, MMC-nin də məcburi auditdən keçməsi vacibdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 64.8-ci maddəsində göstərilir ki, «Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər». Eyni zamanda, həmin Məcəllənin 64-cü maddəsi üzrə (təsərrüfat ortaqlıları və cəmiyyətləri) 64.9-cu maddəsində göstərilir ki, «Təsərrüfat cəmiyyəti iştirakçısının mayasının pulla qiymətləndirilməsi cəmiyyətin təsisçiləri (iştirakçıları) arasında razılaşmaya əsasən yerinə yetirilir və müstəqil ekspert yoxlamasından (auditdən) keçirilməlidir». Məcəllənin bu müddəasından belə nəticəyə gəlmək olar ki, təsərrüfat cəmiyyətləri yenidən təşkil (bölünmə, ayrılma, qoşulma, birləşmə) olunarkən onların nizamnamə kapitalında dəyişikliklər baş verir, yəni təsərrüfat cəmiyyəti iştirakçısının mayasının yenidən pulla qiymətləndirilməsinə ehtiyac yaranır. Deməli, belə olan halda da təsərrüfat cəmiyyəti iştirakçısının mayasının yenidən pulla qiymətləndirilməsi auditdən keçməlidir.

Qanunvericilikdə ayrı-ayrı fəaliyyətlərin tənzimlənməsində məcburi qaydada auditor yoxlamalarının keçirilməsi tələbləri də nəzərdə tutulmuşdur.

Məsələn, «Banklar haqqında» Azərbaycan Respublikası Qanununun 44-cü (kənar audit) maddəsində göstərilir ki, «Bankın və xarici bankın yerli filialının maliyyə fəaliyyəti hər il auditor fəaliyyətini həyata keçirmək üçün xüsusi razılığa (lisenziyaya) malik olan kənar auditor tərəfindən yoxlanılmalıdır».

«İnvestisiya fondları» haqqında Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində göstərilir ki, «İnvestisiya fondunun idarəçisi ildə azı bir dəfə kənar auditor tərəfindən yoxlanılmalıdır. İnvestisiya fondunun auditi yalnız nəzarət orqanı və auditor xidmətlərini tənzimləyən aidiyyəti orqan tərəfindən birgə müəyyən edilmiş tələblərə cavab verən kənar auditorlar tərəfindən aparıla bilər».

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1078-12.2-ci («İnvestisiya qiymətli kağızlarının emissiya prospektində aşağıdakı məlumatlar olmalıdır:») maddəsi üzrə 1078-12.2.8-ci maddəsində göstərilir ki, «müstəqil auditorun hesabatı ilə birlikdə, emitentin sonuncu balansı və toplu maliyyə hesabatı» olmalıdır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 262-ci «Kollektiv tələblərin irəli sürülməsi» maddəsinin 4-cü bəndində göstərilir ki, «İşəgötürənin iqtisadi imkanlarına uyğun olmayan tələblərə yol verilmir. Tələblər iqtisadi imkanlarına uyğun olmadıqda, işəgötürən bunu auditor rəyinə əsasən sübut etməlidir».

Bir qayda olaraq, lisenziyaların alınması üçün müvafiq icra hakimiyyəti orqanına təqdim olunan sənədlərin tərkibində auditor yoxlamasından keçmiş son maliyyə ilinin maliyyə hesabatları tələb olunur. Bunu lisenziya tələb olunan fəaliyyətlər üçün təsdiqlənən ayrı-ayrı normativ hüquqi aktların tələblərində görmək olar.

«Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 oktyabr 2007-ci il tarixli 155 №-li qərarı ilə təsdiq edilmiş «Məcburi auditin obyekti olan təsərrüfat subyektləri üzrə «Daxili audit haqqında» Azərbaycan Respublikası Qanununun mərhələlərlə tətbiqi müddətləri» barədə məlumatlarda dolayısı ilə məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin adları açıqlanmışdır. Bunlar banklar, büdcədənkənar fondlar, ictimai əhəmiyyətli qurumlar, birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar tətbiq edən hüquqi şəxslər, təbii inhisar fəaliyyəti subyektləri, bank olmayan kredit təşkilatları, sığorta (təkrar sığorta) təşkilatları, maliyyə-sənaye qrupları, fondlar, səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər, bələdiyyələr və bələdiyyə müəssisələridir.

# *Məktəblilər biliklərini nümayiş etdirirlər*

Vergilər Nazirliyinin müxtəlif qurumları tərəfindən tələbələrin və məktəblilərin iştirakilə keçirilən müxtəlif məzmunlu tədbirlər gələcəyin vergi ödəyiciləri olacaq gənclərdə vergi mədəniyyətinin aşılanması, onlara vergilərin əhəmiyyəti barədə düzgün məlumatların verilməsi, bu sahədəki bilik səviyyəsinin yüksəldilməsi baxımından müstəsna əhəmiyyət daşıyır.

5 saylı Ərazi Vergilər İdarəsi tərəfindən Şirvan şəhərindəki 1 nömrəli tam orta məktəbin IX-X sinif şagirdləri arasında «Vergilər» mövzusuna həsr olunmuş bilik müsabiqəsinin keçirilməsinin başlıca məqsədi də məktəblilərin maarifləndirilməsi idi. Müsabiqədə 10-cu sinif şagirdləri Məryəm Babayeva 1-ci, Xanım Səfərli 2-ci, 9-cu sinif şagirdi Səbirə Qasımlı 3-cü yerə layiq görülmüşdür. Qaliblərin mükafatlandırılması mərasimi məktəbdə yaradılmış «Vergilər» Tədris-metodiki kabinetdə həyata keçirilmişdir.



Tədbirdə qaliblərə fəxri fərmanlar, müxtəlif qiymətli hədiyyələr, eyni zamanda müsabiqədə iştirak etmiş bütün şagirdlərə həvəsləndirici mükafatlar təqdim edilmişdir.

# Əlavə dəyər vergisi

## *May ayının 1-nə Azərbaycanda 443 min 592 vergi ödəyicisi olmuşdur ki, onlardan 18.555-i ƏDV ödəyicisi, o cümlədən 11.490-ı aktiv ƏDV ödəyicisidir*

***Əlavə dəyər vergisinin tutulması sxemi 1954-cü ildə fransız iqtisadçı M.Lore tərəfindən təklif edilmişdir. O, ƏDV-nin fəaliyyət sxemini təsvir etmiş və onun dövriyyədən tutulan vergidən üstünlüyünü əsaslandırmışdır. On ildən artıq müddətdə ƏDV Fransadan asılı olan Kod-d'İvuar dövlətində təcrübədən keçirilmişdir. 1982-ci ildən Avropa İttifaqına daxil olmaq istəyən ölkələr üçün vergi sistemlərinə ƏDV-nin daxil edilməsi zəruri şərt kimi müəyyənləşdirilmişdir. Buna görə də hazırda ƏDV Avropa İttifaqının büdcəsinin əsas gəlir mənbəyidir. İttifaqa üzv olan hər bir dövlət ƏDV daxilolmalarının müəyyən faizini bu birliyin büdcəsinə köçürür.***

Azərbaycanda ƏDV 1992-ci ildən tətbiq edilir. Ölkəmizin Vergi Məcəlləsinə əsasən, ƏDV vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə verilən hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir.

Dolayı vergi olmaqla, ƏDV məhsulun qiymətinə əlavə formasında çıxış edir. Əgər mənfəət vergisi müəssisənin sərəncamında qalan mənfəətin, gəlir vergisi işçilərə ödənilən əməkhaqqının həcminin azalmasına səbəb olursa, ƏDV müəssisənin vəsaitlərinin həcmini azaltmır, çünki o, məhsulun istehlakçısı tərəfindən əmtəənin qiymətində ödənilir. Əlavə dəyər vergisinin iqtisadi mənası ondan ibarətdir ki, o, istehsalın və dövriyyənin bütün mərhələlərində yaradılmış və satılmış malların (işlərin, xidmətlərin) dəyəri ilə istehsal və dövriyyə xərclərinə aid edilmiş material xərcləri arasındakı fərq kimi müəyyən olunan əlavə edilmiş dəyərin bir hissəsindən tutulur.

Məhsul xaricə satıldıqda ƏDV-yə sıfır dərəcə ilə cəlb olunduğundan, bu vergi növü həm də ixrac olunan məhsul istehsalının həcminin artırılmasını stimullaşdırır. ƏDV geniş əhatə dairəsinə malik olduğu üçün vergi dənyayınma hallarının nəzarətdə saxlanılması böyük aktuallıq kəsb edir. Bu istiqamətdə atılan mühüm addımlardan biri dünyada qabaqcıl təcrübələrdən sayılan ƏDV depozit hesabının yaradılmasıdır.

### ƏDV üzrə depozit hesabı

Azərbaycan Respublikası vergilər nazirinin 3 noyabr 2008-ci il tarixli əmri ilə təsdiq edilmiş «Vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi üzrə 2009-2012-ci illər üçün Strateji Plan» çərçivəsində vergidən yayınma hallarının qarşısının alınması və ƏDV üzrə inzibatçılığın təkmilləşdirilməsi məqsədilə 2008-ci ilin əvvəlindən ƏDV-nin depozit hesabının tətbiqinə və müvafiq proqram təminatının istifadəsinə başlanılmışdır.

Bu hesabın tətbiqi, əsasən, iki istiqamətdə işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- ƏDV-nin büdcəyə ödənilməsi, digər vergi ödəyicilərinin sub-uçot hesablarına köçürülməsi, Dövlət Gömrük Komitəsinə ödənilməsi;

- Digər vergilərin dövlət büdcəsinə ödənilməsi (yalnız ƏDV ödəyiciləri üçün).

Vergi qanunvericiliyinə görə, mal (iş, xidmət) əldə edən şəxslər hesab-fakturada göstərilən malın dəyərini hesablaşma hesabına, hesablanmış ƏDV-ni isə ayrıca depozit hesaba, yəni satıcının ƏDV sub-uçot hesabına köçürürlər. Bu sistem ƏDV-nin hərəkəti və əvəzləşdirilməsi, habelə ƏDV üzrə dövlət büdcəsinə ödənişlə bağlı vergi ödəyicilərinin bütün əməliyyatları üzrə vergi orqanları tərəfindən səmərəli nəzarəti həyata keçirməyə imkan yaradır.

Bununla da ƏDV-nin ödənilməsindən yayınmaya və bu vergi növünün əvəzləşdirilməsi üzrə qeyri-qanuni hallara qarşı yeni səmərəli sxemin tətbiq edilməsinə nail olunmuşdur. Depozit hesabının tətbiq olunduğu ilk ildə, yəni 2008-ci ildə ƏDV üzrə daxilolmalar 2007-ci ilin müvafiq dövrü ilə müqayisədə 76,3%-dək artmışdır.

Vahid depozit hesabının tətbiqi vergi ödəyicilərinə banka getmədən başqa ödəyicilərə, büdcə və gömrük orqanlarına ödənişlərin həyata keçirilməsinə imkan vermiş, vergi ödəyicilərinin ƏDV üzrə inzibati yükünün azaldılmasına da şərait yaratmışdır.

Azərbaycanda 2008-ci ildən tətbiq olunan bu sistem bir sıra beynəlxalq institutların və digər ölkələrin vergi administrasiyalarının ciddi marağına səbəb olmuşdur.

### Elektron vergi hesab-fakturası

«Vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi üzrə 2009-2012-ci illər üçün Strateji Plan» çərçivəsində ƏDV sahəsində vergi inzibatçılığının daha da müasirləşdirilməsi məqsədilə 2010-cu il yanvarın 1-dən etibarən elektron hesab-fakturaların tətbiqinə başlanmışdır. Bu sistemin tətbiqi ilə təqdim edilmiş mallara, göstərilmiş xidmətlərə və görülmüş işlərə görə vergi hesab-fakturaları elektron formada təqdim edilir. Vergi inzibatçılığının şəffaflığı baxımından əhəmiyyətli olan bu sistem vergi ödəyiciləri üçün də müsbət nəticə vermişdir.

Elektron vergi hesab-fakturaları vergi xidməti orqanları ilə vergi ödəyiciləri arasında əlaqələrə keçidi elektron daşıyıcılar vasitəsilə təmin etmiş, vergi orqanlarının işini əhəmiyyətli dərəcədə asanlaşdırmış, vergi nəzarətini gücləndirmiş, eyni zamanda vergi ödəyicilərinin öz vaxtına və maliyyə vəsaitlərinə qənaət etməsinə imkan vermişdir.

Elektron vergi hesab-fakturalarının tətbiqi nəticəsində kağız sərfiyyatı minimuma endirildiyindən il ərzində 20 tona yaxın kağıza qənaət edilir. Bu sistemin tətbiqi saxta hesab-fakturalardan istifadə etmək cəhdlərinin də qarşısını birdəfəlik almışdır. İqtisadi inkişaf səviyyəsinə görə yaxın dövlətlərlə müqayisədə Azərbaycanda ilk dəfə elektron vergi hesab-fakturalarının tətbiqi ölkəmizin hərtərəfli inkişafının əyani göstəricisi olmuşdur.

**Arzu İBRAHİMOVA**

# İKT sahəsində inkişaf potensialı

*Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsi sürətlə inkişaf edir. İndiyədək bu sahəyə ümumi investisiya qoyuluşunun həcmi təxminən 500 milyon dolları ötmüşdür və bunun 70%-i xarici sərmayələr olmuşdur. Maraqlı tendensiya budur ki, daxili investisiyaların həcmi ildən-ilə artır: müxtəlif sahələrdə fəaliyyət göstərən yeni birgə müəssisələr yaradılır. Hazırda rabitə sahəsinin ÜDM-dəki payı 2,3%-ə çatmışdır. Ötən il sektor üzrə əldə olunan gəlirlərin həcmi 2010-cu ilə nisbətən təxminən 12% çox olmuşdur.*

Ölkəmizdə MDB dövlətləri arasında ilk dəfə sabit telefon şəbəkəsi tam rəqəmləşdirilmiş və bütün ölkə üzrə beynəlxalq standart nömrələmə sisteminə keçirilmişdir. Respublika üzrə telefon şəbəkəsinin təqribən 50%-i elektronlaşdırılmışdır. Bakı şəhərində isə bu göstərici 57,8% təşkil edir. Respublikanın bir sıra bölgələrində - Naxçıvan Muxtar Respublikasında, Mingəçevir şəhərində, Abşeron, Şəki, Zaqatala, Balakən, Xızı, Siyəzən, Yevlax rayonlarında telefon şəbəkələrinin tamamilə elektron tipli olması təmin edilmişdir. Son 10 ildə telefon şəbəkəsinin ümumi tutumu təxminən 50% artmış, göstərilən xidmətlərin keyfiyyəti yüksəlmiş və çeşidləri çoxalmışdır. Sabit telefon şəbəkəsinin tutumu təxminən 50000 nömrə artaraq hər 100 nəfər üzrə 18,6%-ə çatdırılmışdır.

Son bir neçə ildə mobil rabitə Azərbaycanda daha böyük sürətlə inkişaf etmiş və abunəçilərin sayı hər il orta hesabla 2,1 dəfə artmışdır. Hazırda Azərbaycanda mobil rabitə abunəçilərinin sayı 1,7 milyondan çoxdur. Bu gün Azərbaycanda mobil şəbəkə genişləndirilmiş, ölkəmizdə fəaliyyət göstərən hər üç operator müasir 3G xidmətlərinə başlamışdır.

Azərbaycanda internet 1995-ci ildən fəaliyyət göstərir və hazırda istifadəçilərin sayı təxminən 400 min nəfəri ötmüşdür. Ötən dövr ərzində Bakı şəhərində və rayonlarda əksəriyyəti özəl sektora aid olmaqla, təxminən 450 internet-klub açılmışdır. Dövlət xətti ilə yaradılmış internet mərkəzləri şəbəkəsi də mövcuddur ki, onlar ölkənin müxtəlif regionlarında yerləşən 20-dək mərkəzdə əhaliyə internetə çıxışla yanaşı, kompüter biliklərinin öyrədilməsi funksiyalarını həyata keçirirlər.




«Elektron hökumət» layihəsi çərçivəsində elektron imzanın tətbiqi üzrə Milli Sertifikat Xidmətləri Mərkəzi yaradılmış və 2011-ci ilin sentyabr ayından dövlət orqanlarına, vətəndaşlara və biznes qurumlarına elektron imza xidmətlərinin göstərilməsinə başlanılmışdır. Həmçinin, «Elektron hökumət portalı»nın birinci versiyası yaradılmışdır. Hazırda 15 dövlət orqanı bu sistemə qoşulmuş və göstəriləcək elektron xidmətlərin sayı 60-a çatdırılmışdır.

İnformasiya texnologiyaları sahəsində qanunvericilik bazasının formalaşdırılması da önəmli məsələlərdəndir. Ötən illər ərzində «Elektron imza və elektron sənəd haqqında», «Poçt rabitəsi haqqında» və «Məlumat toplularının hüquqi qorunması haqqında», «Elektron ticarət haqqında», «Telekommunikasiya haqqında» Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Bu sahədə bəzi qanun layihələri də işlənib hazırlanmış və Milli Məclisin muzakirəsinə təqdim edilmişdir.

**Rəşad SADIQOV**

# Vergilərlə bağlı bilik müsabiqəsi



Ötən həftə 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən Biləsuvar rayonunda Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mubariz İbrahimov adına liseyin şagirdləri arasında vergilərlə bağlı bilik müsabiqəsi keçirilmişdir. Müsabiqədə liseyin üç mərhələdən ibarət keçirilən daxili yarışmalarında fərqlənən 44 şagird iştirak etmişdir.

Sonra müsabiqədə qalib gələn şagirdlərin mükafatlandırılmasına həsr olunan mərasim keçirilmişdir. Tədbiri liseyin direktoru Anar Məmmədov açaraq 6 saylı Ərazi Vergilər İdarəsi ilə təhsil müəssisələrinin əməkdaşlığının əhəmiyyətindən danışmış və belə təlbirlərin şagirdlərin vergi biliklərinin formalaşmasında böyük rol oynadığını bildirmişdir. Tədbirdə Vergilər Nazirliyi tərəfindən həyata keçirilən vergi siyasətinin başlıca prinsiplərindən birinin cəmiyyətdə vergi mədəniyyətinin yüksəldilməsi, vergilərlə bağlı biliklərin təbliği olduğu qeyd edilmişdir. Eyni zamanda, gələcəyin potensial vergi ödəyiciləri olan orta məktəb şagirdlərinin vergilərlə bağlı biliklərinin formalaşmasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmışdır.

Müsabiqədə 20 mümkün baldan 19-nu toplamaqla Arzu Abbasova birinci yerə, 17 bal toplayan Nigar Əbişova, Ziya Mürsəlzadə, Süsən Elyaslı, Aynur Cahangirli ikinci yerə, biliyi 16 balla qiymətləndirilən Həmid Abbasov və Səbinə Abbaszadə üçüncü yeri əldə etmişlər. Qaliblərə 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən qiymətli hədiyyələr təqdim olunmuşdur.

# Azərbaycan «Yaşıl Kart» sisteminə daxil olacaq...

*İcbari Sığorta Bürosundan aldığımız məlumata görə, tezliklə respublikamızın avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığorta şəhadətnaməsi digər ölkələrdə də tanına bilər. Bu fikir Azərbaycan nümayəndə heyətinin Belçikanın Brüssel şəhərində Milli Avtonəqliyyat Sığortası Bürolarının Beynəlxalq Assosiasiyasının («Yaşıl Kart» sısteminin) rəhbərliyi ilə respublikamızın «Yaşıl Kart» sısteminə daxil olması prosesinə başlanmasına dair keçirilən görüşdən sonra səsləndirilib. Görüş zamanı «Yaşıl Kart» sısteminə daxil olma prosedurları müzakirə edilib, müvafiq tövsiyələr verilib.*

Qeyd edək ki, «Yaşıl Kart» sisteminin tətbiqinə 1953-cü ildən başlanılmışdır. «Yaşıl Kart» sistemi avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası şəhadətnaməsinin bu sistemin iştirakçıları, yəni üzv ölkələr arasında qarşılıqlı tanınması haqqında sazişdir. Bu sistemə əsasən «Yaşıl Kart» haqqında sazişin iştirakçıları olan dövlətlərin hər hansı biri tərəfindən verilmiş avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığorta şəhadətnaməsi həmin sazişin iştirakçısı olan digər dövlətlərin ərazisində etibarlı sayılır.

Hazırda «Yaşıl Kart» sisteminə Avropa, Asiya və Afrikadan 46 ölkə, həmçinin qonşu dövlətlərdən Rusiya, Türkiyə və İran daxildir.

Onu da qeyd edək ki, ölkədə avtomobil nəqliyyatı vasitələrinin icbari sığortası yeni «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası mexaniki avtonəqliyyat vasitələrinin ölkə ərazisində istifadəsi nəticəsində fiziki şəxslərin sağlamlığına, həmçinin fiziki və hüquqi şəxslərin əmlakına vurduğu zərərlərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir. Bildirək ki, ölkə ərazisinə tranzit məqsədilə daxil olan xarici ölkədə qeydiyyata alınmış avtonəqliyyat vasitələrinin sahibləri ilə də müvafiq icbari sığorta müqavilələri bağlanılır və bu müqavilələrin müddəti 1 ay müəyyənləşdirilir. İcbari sığorta şəhadətnaməsi sürücülük vəsiqəsi, texniki pasport və etibarnamə kimi daim sürücünün üzərində olmalıdır.



Cari ilin may ayının 1-nə olan məlumata əsasən, İcbari Sığorta Bürosunun müvafiq sığorta növünü aparmağa icazəsi olan 11 iştirakçısı («Paşa Sığorta» ASC, «Atəşgah» Sığorta Şirkəti ASC, ASC «Standard Insurance» Sığorta Şirkəti, «AtaSığorta» ASC, «Xalq Sığorta» ASC, «AXA MBASK Sığorta Şirkəti» ASC, «AZSIĞORTA» ASC, «Alfa Sığorta» ASC, Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti, «Meqa Sığorta» ASC, «İpək Yolu Sığorta» ASC) tərəfindən cari ilin aprel ayı ərzində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə ümumilikdə 123043 icbari sığorta müqaviləsi bağlanmışdır ki, bunların da 18836-sı xarici ölkədə qeydiyyata alınmış və Azərbaycan Respublikasına tranzit məqsədilə daxil olan avtonəqliyyat vasitələri ilə bağlı olan və 1 ay müddətinə bağlanan icbari sığorta müqavilələridir.

Cari ilin mart ayı ilə müqayisədə aprel ayı ərzində bağlanmış avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta müqavilələrinin sayında və sığorta haqlarının məbləğində 52%-dən çox artım qeydə alınmışdır.

**AYTƏN**



Qulu Soltanov,
sərbəst auditor

## Mühasibat

# Amortizasiya, onun mühasibat və vergi uçotu üzrə təhlili

**Torpaq, tikinti və avadanlıq obyektlərinin qiymətləndirilməsi, yəni uçota alınması üçün mədaxil dəyərinin hesablanması**

Ənənəvi uçotun aparılması dövründə həm mülkiyyətçilər, həm də mühasiblər təsəvvürlərində «qiymətləndirmə» anlayışına çox ehtiyatla yanaşardılar. Çünki əmlakın qiymətləndirilməsi ilə bağlı müəyyən qanuni hüquqi təlimatlar təsdiqlənmişdir və sahibkarlar qiymətləndirmə işinin aparılmasının yalnız dövlətə məxsus olduğunu və ya bunun dövlət orqanının tapşırığı ilə həyata keçirilməsini düşünürdülər. Həm də «qiymətləndirmə» dedikdə, yalnız əsas vəsaitlərin müəyyən qədər istismarından sonra qalıq dəyərinin bərpası məqsədilə yenidən qiymətləndirilməsinin aparılması kimi başa düşülürdü.

Yeni standartlarda «aktivin qiymətləndirilməsi» anlayışı ənənəvi uçotda eşitdiyimiz «əsas vəsaitin uçot dəyəri», mədaxil dəyəri anlayışına uyğun gəlir. Lakin ənənəvi uçotun aparılması vergi məqsədləri üçün aparıldığına görə mühasiblər, eləcə də mülkiyyətçilər əsas vəsaitlərin qalıq dəyərlərinə amortizasiya tətbiqindən başqa digər formada dəyişikliklər etməkdən çəkinirdilər. Əsas vəsaitlərin ilkin dəyərini yalnız Vergi Məcəlləsinin tələblərinə uyğun hesablayaraq uçota alardılar və heç vaxt yenidən qiymətləndirmək fikrinə düşməzdirlər.

Artıq Vergi Məcəlləsi və MMUS-lar tətbiq olunduqdan sonra mühasiblər tam əmin olmalıdırlar ki, əsas vəsaitlərlə bağlı uçotun tələbləri vergi məqsədləri üçün tam başqa, mühasibat məqsədləri üçün isə tam başqa ola və kəskin fərqlənə bilər.

7№-li MMUS-a görə torpaq, tikili və avadanlıq obyekti əldə olunduğu zaman ilkin dəyəri ilə qiymətləndirilməlidir. «İlkin dəyər» aşağıdakılardan ibarətdir:

1. **Ödənilmiş pul və ya pul ekvivalentləri məbləği.** Yəni torpaq, tikili və avadanlıq obyektinin əldə olunması üçün yalnız pul vəsaitləri ödənilmişdirsə, onun ilkin dəyəri ödənilmiş pul vəsaitlərinin məbləği ilə ölçülməlidir.

2. **Torpaq, tikili və avadanlıq obyektinin əldə olunması üçün ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyəri.** Yəni torpaq, tikili və avadanlıq obyektini almaq üçün əvəzində pul deyil, hər hansı digər maddi (əsas vəsait, material, azqiymətli əşya, hazır məhsul, mal) və ya qeyri-maddi əşyanın (lisenziya, proqram təminatı, digər istifadə hüquqları) təhvil verilməsi (mübadiləsi) nəzərdə tutula bilər. Belə olan halda, əldə olunmuş aktivin ilkin dəyəri həmin aktivin (alınan əsas vəsaitin) öz ədalətli dəyəri ilə ölçülməlidir. Əgər əldə olunan aktivin ədalətli dəyərini müəyyən etmək mümkün deyildirsə, ilkin dəyər kimi təhvil verilmiş aktivin ədalətli dəyəri müəyyən edilməlidir. Təhvil verilmiş aktivin ədalətli dəyərini də müəyyən etmək mümkün olmadıqda əldə olunmuş aktiv təhvil verilmiş aktivin balans dəyəri ilə, yəni qalıq dəyəri ilə qiymətləndirilərək uçota alınmalıdır.

Burada biz «ədalətli dəyər» anlayışından istifadə etdik. Bu anlayış ənənəvi uçot nəzəriyyəsində «bazar qiyməti» fikrinə uyğun gəlir. 7 №-li MMUS-un 24-28-ci maddələri mübadilə zamanı əldə edilmiş torpaq, tikili və avadanlıq obyektinin ilkin dəyərinin qiymətləndirilməsi üzrə tələbləri əhatə edir.

Ədalətli dəyəri ya qiymətqoyma üzrə peşəkar mütəxəssislərin qiymətləndirmələri əsasında, ya alınan aktivin adi satış qiymətinə istinadən, ya da təhvil verilmiş aktivin adi satış qiymətinə istinadən müəyyən edilə bilər. Aktivin adi satış qiyməti isə ya təchizatçının qiymətləri, ya kütləvi informasiya vasitələrində və xüsusi ədəbiyyatlarda dərc olunan qiymətlər, ya səlahiyyətli hökumət orqanları tərəfindən təqdim olunmuş məlumatlar, ya da peşəkar qiymətləndirmələr əsasında müəyyən edilə bilər.

Mühasiblər bilməlidirlər ki, aktivin ilkin dəyərinə nələri aid etmək olar və həmçinin, nələri aid etmək olmaz.

7 №-li MMUS-un 18-ci maddəsində torpaq, tikili və avadanlıqların ilkin dəyərinin tərkib hissələrinin nələrdən ibarət olduğu göstərilmişdir. Bunlar aşağdakılardır:

- alış qiymətindən hər növ ticarət endirimləri çıxıldıqdan sonra, idxal rüsumları və alışla bağlı əvəzləşdirilməyən vergilər daxil olmaqla, ümumi sərf edilən məsrəflər (ƏDV ödəyicisi olmayan və ya ƏDV ödəyicisi olan, lakin konkret əməliyyat üzrə ƏDV-ni əvəzləşdirmək hüququ olmayan şəxslər aktvin alışı ilə bağlı satıcının ƏDV depozit hesabına ödədiyi ƏDV-nin məbləğini ilkin dəyərə əlavə etməlidirlər);
- aktivdən müəssisə rəhbərliyi tərəfindən müəyyən edilmiş tərzdə istifadə olunması üçün onun lazımi istismar yerinə və vəziyyətə gətirilməsinə çəkilən bütün birbaşa məsrəflər;
- obyektin alınması zamanı və ya onun ehtiyatlar yaratmaq məqsədilə deyil, digər məqsədlər üçün müəyyən müddət ərzində istifadə edilməsi nəticəsində demontajı və ləğvi, habelə onun yerləşdiyi sahənin bərpası kimi işlərin görülməsi üzrə müəssisənin öz üzərinə götürdüyü öhdəlik ilə əlaqədar çəkiləcək məsrəflərin ilkin smeta həcmi.
- həmçinin, əlavə olunur:
  - ərazinin hazırlanması üzrə məsrəflər;
  - çatdırılma və boşaldılma məsrəfləri, quraşdırılma və montaj məsrəfləri;
  - torpaq, tikili və avadanlıq obyektinin düzgün işləyib-işləməməsini yoxlamaq məqsədilə sınaq əməliyyatları üzrə məsrəflər;
  - arxitektorlara, mühəndislərə və digər peşəkar xidmətlərə (məsələn, hüquqşünasın xidmətlərinə) görə verilən mükafatlar;
  - aktivlərin alışı ilə əlaqədar vasitəçi tərəflərə (məsələn, daşınmaz əmlak üzrə agentin xidmətlərinə) ödənilmiş mükafatlar.

**7№-li MMUS üzrə Şərhlər və Tövsiyələrdə aktivin ilkin dəyərinə daxil olmayan məsrəflər aşağıdakı kimi verilmişdir:**

- aktivin əldə olunmasına, təyinat yerinə gətirilməsi və işlək hala salınmasına aid olmayan idarəetmə və digər əlavə məsrəflər;
- işə salma və digər oxşar istehsala hazırlıq xərcləri (bu xərclər, stimullaşdırma fəaliyyətləri kimi, aktivin əldə olunması və ya işlək hala gətirilməsinə aid edilə bilməzsə);
- aktivin planlaşdırılan fəaliyyət nəticələrini verməsinə qədər çəkilmiş ilkin əməliyyat zərərləri (torpaq, tikili və avadanlıq obyekti vasitəsilə istehsal olunmuş məhsullara tələbat yaranana qədər müəssisənin ilkin olaraq zərər çəkməsi təbiidir. Bu cür zərərlər kapitallaşdırıla və aktivin ilkin dəyərinə daxil edilə bilməz);
- müəssisənin fəaliyyətlərinin hamısının və ya bir qisminin yerdəyişməsi və ya yenidən təşkili xərcləri;
- quraşdırılması və ya yığılması zamanı zərər dəymiş avadanlığın təmiri xərcləri (bu cür xərclər adi əməliyyat xərclərinin bir hissəsi kimi qəbul olunur və uçotda aktivin əldə olunması və ya işlək hala gətirilməsinə aid edilən xərclər kimi əks etdirilə bilməz);
- əldə olunan avadanlıqlarda işçilərin işləməsi üçün treninq xərcləri;
- əmlak vergisi;
- aktivlərin alışı üzrə istifadə olunmamış endirimlər;
- müəssisə borclara aid edilən xərclərin kapitallaşdırılması siyasətini tətbiq etmirsə, torpaq, tikili və avadanlıqların alınması və tikilməsinə birbaşa aidiyyəti olan borclara aid edilən xərclər.

## vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | |

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**15 may** - «(5)», «6».
**21 may** - «3», «4», «8», «10.1», «10.2» və «10.3»

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

xarici ölkələrdən vergi xəbərləri

# Böyük Britaniyada vergi sisteminin dəyişdirilməsi gündəlikdədir

Ölkədə fəaliyyət göstərən «2020 Tax Commission» adlı qurum yeni hesabatını nəşr etmişdir. Araşdırmada vergi sistemində bir sıra dəyişikliklər təklif edilərək qeyd olunur ki, bu dəyişikliklər ölkənin vergi sisteminin sadələşdirilməsinə və əsas iqtisadi göstəricilərin yüksəlişinə səbəb ola bilər.

Tədqiqat müəlliflərinin ən əhəmiyyətli təkliflərindən biri Böyük Britaniyada fərdi gəlirlərin və bütün ölçülərdə və növlərdə kapital artımından gələn gəlirlərin 30% həcmində vahid vergiyə cəlb olunması, eyni zamanda vergiqoymanın 10 min funt-sterlinq həcmində yeni minimal həddinin müəyyənləşdirilməsidir.

Dəyişiklik təşəbbüsünü irəli sürənlərin rəyinə görə, bu yeniliklər Britaniya ödəyicilərinin vergi yükünün əsaslı şəkildə azaldılmasına, həmçinin vətəndaşların istehlak fəallığının artmasına və beləliklə, ölkənin «ümumdünya ticarət mərkəzinə» çevrilməsinə şərait yarada bilər.

Hesabat müəllifləri qeyd edirlər ki, vergi sistemində dəyişikliyin aparılması qarşıdakı 15 il ərzində ümumi daxili məhsulun 8,4% artımı ilə nəticələnə bilər. «2020 Tax Commission»un sədri bu təklifi şərh edərək göstərmişdir ki, Böyük Britaniyanın seçim etmək imkanı var: «...ya mürəkkəb vergi sisteminin ölkənin iqtisadiyyatına zərər vurmasına göz yummaq, ya da 21-ci əsrin vergi sisteminin dəyişməsi barədə radikal, eyni zamanda realist planı qəbul etmək».



«2020 Tax Commission» qurumunun təkliflərinə əsasən, bütün korporativ vergiləri 30% həcmində vahid vergi ilə əvəz etmək, irsiyyət vergisindən, kapitalın artımına qoyulan vergidən, gerb yığımından, aviasiya sərnişinlərindən tutulan vergilərdən imtina etmək, istehlak yanacağı üçün qoyulmuş aksizləri isə 5%-dək azaltmaq lazımdır.

Xatırladaq ki, «2020 Tax Commission» siyasət, iqtisadiyyat və vergitutma sahələrində fəaliyyət göstərən 30 ekspertdən təşkil olunub, onlar Böyük Britaniyanın Vergi Ödəyiciləri Alyansı və Direktorlar İnstitutu ilə birgə çalışırlar.

# Belarusda Tax Free sisteminin tətbiqi planı hazırlanıb

Hazırda ölkənin Vergilər və Yığımlar Nazirliyinin hazırladığı bu planla bağlı digər nazirliklərlə birlikdə texnoloji prosedurlar işlənilməkdədəir. İdman və Turizm Nazirliyinin turizm departamentinin direktoru Vadim Karmazin demişdir ki, təmsil etdiyi nazirlik buna malların ixracı və ölkəyə gələn xarici vətəndaşların sayının artırılması üçün təsirli stimullaşdırıcı mexinizmlərdən biri kimi baxır.

Tax Free sistemi ölkədə mal almış xarici vətəndaşlara imkan yaradır ki, öz vətənlərinə qayıdarkən satın aldıqları mallara qoyulmuş əlavə dəyər vergisinin bir hissəsini geri alsınlar. Bu sistem Qərb ölkələrində geniş tətbiq olunur. Burada bir mülahizə əsas götürülür ki, əcnəbi turistlərin hər hansı ölkədə xərclədikləri pul, adətən, mallara qoyulmuş ƏDV üçün geri aldıqları puldan xeyli çox olur. Ona görə də daha çox turistlərin cəlb edilməsi üçün ƏDV-nin qaytarılması həvəsləndirci amil rolunu oynayır və buna getdikcə daha artıq əhəmiyyət kəsb edir.

Belarusun Ticarət Nazirliyi bu sistemi 2012-ci ildə tətbiq etmək niyyətində olduğunu bəyan etmişdi. Lakin İdman və Turizm Nazirliyindən bildirilmişdir ki, Tax Free sisteminin 2014-cü ildə Minskdə keçiriləcək hokkey üzrə dünya çempionatı ərəfəsində tətbiq edilməsi planlaşdırılır.

# Son 50 ildə Kanadada vergilər 1700% artmışdır

*Hazırda bu ölkədə vergi ödəmələri ev, geyim və ərzaq xərclərini üstələyir*

Bu günlərdə Kanadada fəaliyyət göstərən «Fraser Institute» adlı qeyri-hökumət təşkilatı ölkədə istehlak qiymətlərinin indeksini açıqlamışdır. Qurumun ekspertlərinin rəyinə görə, Kanadanın federal və yerli hökumət idarələri tərəfindən müəyyənləşdirilən vergilər son 50 ildə vətəndaşların ailə büdcəsinin ən çox artmış xərclərini təşkil edir. Hazırda orta kanadalı ailəsinin illik gəliri 74 min dollardan bir az artıqdır ki, onun da 31 min dolları və ya 41,5%-i vergi öhdəliklərinin ödənilməsinə sərf olunur.

Müqayisə üçün ekspertlər 1961-ci ilin rəqəmlərini misal göstərirlər: o vaxt orta Kanada ailəsinin aylıq gəliri cəmi 5 min dollar idi, vergi öhdəliyinin məbləği isə 1,7 min dollardan artıq deyildi - bu, ümumi gəlirin 33,5%-i demək idi. Hesabat müəllifləri qeyd edirlər ki, 1960-cı illərin əvvəllərindən bəri orta kanadalı ailəsinin hər bir üzvünün vergi öhdəliyinin həcmi 1738% təşkil etmişdir. Bununla yanaşı, ev xərci 1185%, yemək xərci 518%, geyim xərci isə 500% artmışdır.

idman xəbərləri

# Yelena Vıstropova Azərbaycana növbəti Olimpiya lisenziyası qazandırmışdır



Çin Xalq Respublikasının Quançjou şəhərində keçirilən boks üzrə qadınlar arasında dünya çempionatında mübarizə aparan idmançımız Yelena Vıstropova növbəti qələbəsini qazanmışdır. Azərbaycan Boks Federasiyasından bildirmişlər ki, 75 kq çəki dərəcəsində mübarizə aparan boksçumuz yarımfinalda İsveç nümayəndəsi Anna Laurellə üz-üzə gəlmişdir. Gərgin idman mübarizə şəraitində keçən döyüşdə milli komandamızın üzvü 16:15 hesabı ilə qələbə qazanmışdır. Sonuncu - 4-cü raundda boksçumuz rəqibini nokdauna salmışdır. Y.Vıstropova dünya çempionatının finalına yüksəlməklə yanaşı, London Yay Olimpiya Oyunlarına da vəsiqə əldə etmişdir. Beləliklə, idmançımız Azərbaycana 52-ci Olimpiya vəsiqəsini qazandırmışdır.

# Gimnastlarımızın növbəti uğuru

Beynəlxalq Gimnastika Federasiyasının himayəsi, Özbəkistan Gimnastika Federasiyasının və Mədəniyyət və İdman İşləri Nazirliyinin təşkilatçılığı ilə Daşkənddə keçirilən bədii gimnastika üzrə Dünya Kubokunun növbəti mərhələsi və «Happy Caravan» beynəlxalq turniri başa çatmışdır. Yarışlarda, Azərbaycan da daxil olmaqla, dünyanın 20 ölkəsindən gəlmiş 120-dən artıq idmançı iştirak etmişdir.

Dünya Kubokunun final mərhələsində Azərbaycanın tanınmış gimnastı Aliyə Qarayeva topla və gürzlə hərəkətlərdə, ayrı-ayrılıqda, ikinci yerləri tutmuşdur.

«Happy Caravan» beynəlxalq turnirində isə milli komandamızın digər üzvü Nilufər Niftəliyeva 26.425 xal toplayaraq üçüncü yerə çıxmışdır.

# Beynəlxalq turnirdə iki medal

***Belarusun paytaxtı Minskdə keçirilən boks üzrə beynəlxalq turnirə yekun vurulmuşdur.***

Azərbaycan Boks Federasiyasından bildirmişlər ki, turnirdə 52 kiloqram çəki dərəcəsində mübarizə aparan boksçumuz Elvin Məmişzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Milli komandamızın üzvü həlledici görüşdə qazaxıstanlı Narqazi Yussupovu məğlub etmişdir.

Yarışda ən ağır çəki dərəcəsində yarışan dünya çempionumuz Məhəmmədrəsul Məsidov isə finalda Qazaxıstan təmsilçisi Jan Kosbutskiyə 6:13 hesabı ilə məğlub olaraq gümüş medal qazanmışdır.

Apreldə Trabzonda keçirilən Avropa Olimpiya lisenziya turnirində London-2012-yə vəsiqə qazanan Məhəmməd Abdulhəmidov (56 kq) isə dörddəbir finalda rusiyalı dünya çempionu Sergey Vodopyanova uduzmuşdur. Döyüş 8:8 hesabı ilə başa çatsa da, hakimlər qələbəni rəqibə vermişlər.

# Azərbaycan kanoeçiləri 5 medal qazanıblar

Polşanın Poznan şəhərində keçirilən kayak və kanoe üzrə Dünya Kuboku yarışlarının birinci mərhələsində Azərbaycan milli komandası böyük uğura nail olmuşdur. Milli Avarçəkmə Federasiyasının mətbuat xidmətindən bildirmişlər ki, yarışda ölkəmizi təmsil edən dörd kanoeçidən üçü üst-üstə bir qızıl, bir gümüş və üç bürünc medal qazanmışdır.

İdmançılarımızdan Andrey Kraytor 1 nəfərlik qayıqla Olimpiya məsafəsi sayılan 200 metrlik yürüşdə qızıl, 500 metr məsafəyə yürüşdə isə bürünc medala layiq görülmüşdür. Sergey Bezuqlıy - Maksim Prokopenko dueti isə 2 nəfərlik qayıqla 500 metr məsafəyə yürüşdə gümüş, 200 metrlik, eləcə də Olimpiya məsafəsi sayılan 1000 metr məsafəyə yürüşlərdə bürünc medallar qazanmışlar.



Seçmə və yarımfinal yürüşlərində birinci olan A.Kraytor əsas finalda da hamını qabaqlayaraq böyüklər arasında nüfuzlu yarışlarda ilk dəfə əldə etdiyi bu qələbəsi ilə Azərbaycanın 1 nəfərlik kanoe qayığı ilə 200 metr məsafəyə yürüşlərdə ən güclü olduğunu bir daha nümayiş etdirmişdir. İdmançımız 500 metrlik yürüşdə finişə 2 dəqiqə 9,316 saniyəyə çatmışdır.

S.Bezuqlıy - M.Prokopenko dueti isə final yürüşündə 500 metr məsafəni 1 dəqiqə 47,491 saniyəyə qət etmişdir. İdmançılarımız yalnız belaruslu Andrey Baqdanoviç-Aleksandr Baqdanoviç (1:47.023) duetindən geri qalmışlar. Təmsilçilərimiz 200 metr məsafəyə yürüşdə finişə 40,072 saniyəyə çatmışlar. Onları belaruslu Dmitri Rabçanka-Aleksandr Vavçetski (39,432) və braziliyalı Erlon Souza-Ronilson Oliveyra (39,968) duetləri üstələmişlər.

krossvord



**Soldan sağa:** 1.Nisbətən sabit xüsusiyyətləri olan mədəniyyət və psixikaya malik bir dildə danışan insanların tarixən yaranmış məcmusu; 3.Urmiya gölünün sahilində yazılı mənbələrdə qeyd olunan ilk mərkəzləşdirilmiş dövlət; 5.Qədim Roma natiqi, filosof və siyasi xadim; 7.Amerikalı astrofizik. Günəşin fizikası və onun enerjisindən istifadə olunması üzrə mütəxəssisin soyadı; 10.Bu idman növünün vətəni Şotlandiya sayılır. Hazırda dünya miqyasında elitar növlərdən biridir; 11.ABŞ-ın Pensilvaniya ştatında şəhər; 12.Ögey uşaqlara qayğı göstərən şəxs; 15.Qədim Roma mifologiyasında zamanın, başlanğıclar, sonlar və qapıların tanrısı; 18.Laqeydlik halı, müəyyən hərəkətlərə meylin, marağın olmaması; 19.RF-nin Sverdlovsk vilayətində şəhər; 20.Şahmat fiquru.

**Yuxarıdan aşağı:** 1.Əxlaq; 2.Türkiyənin şərqində şəhər; 3.Valyuta vahidi; 4.Qara dəniz sahilində kurort şəhər; 6.Proqressiv faiz dərəcəsinə malik borc/kredit; 8.Nəfəsli musiqi aləti; 9.Fransada çay; 13.«Əhməd haradadır» filmində sərxoş Əhməd obrazını canlandıran aktyorun adı; 14.Fransada ən uzun çay; 16.Xarici ölkədə və ya beynəlxalq təşkilatlarda dövlətin yüksək çinli diplomatik nümayəndəsi; 17.Görkəmli alman filosofu, neoklassik alman fəlsəfəsinin banisi, Qərbi Avropada İntibah dövrünün son böyük filosoflarından biri.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa:** 1.Gilas; 3.Kitab; 5.Demetra; 7.Rafiq; 10.Mars; 11.Tar; 12.Qitə; 15.Diana; 18.Plagiat; 19.İnsan; 20.Panda. **Yuxarıdan aşağı:** 1.Gəlir; 2.Feta; 3.Koala; 4.Bəbir; 6.Amerika; 8.Fortuna; 9.Çay; 13.Bəsti; 14.Şopen; 16. Asiya; 17.Qara.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h 12-12258-1
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1073, Bakı ş., Landau küç.16

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.
Tiraj: 16000

# «Eurovision»: böyük yola ötəri nəzər

*«Öz məşəlini alovlandır» (Light your fire!) şüarı altında Bakıda keçirilən «Eurovision-2012» mahnı müsabiqəsi böyük bir tarixi yol keçib. Bu tarixin bəzi maraqlı məqamlarını diqqətinizə təqdim edirik*

***1956-cı il mayın 24-də İsveçrənin Luqano şəhərindəki «Kuursaal teatro»da keçirilən ilk «Eurovision» mahnı yarışmasında yeddi ölkə - Niderland, İsveçrə, Belçika, Almaniya, Fransa, Lüksemburq və İtaliya təmsil olunmuş, müsabiqənin ilk qalibi isə isveçrəli Lis Assia seçilmişdi.***

Müsabiqədə bu illər ərzində ən çox qalibiyyəti İrlandiya əldə edib. Bu ölkə yeddi dəfə birincilik qazanıb. Böyük Britaniya, Fransa və Lüksemburq da ən çox qalib olan ölkələr kimi müsabiqənin tarixinə düşüb. Bu ölkələrin hər biri 5 dəfə, İsveç və Niderland isə 4 dəfə birinci olub. Müsabiqədə İrlandiya ən çox qalib gələn ölkə olsa da, yarışmaya ən çox Böyük Britaniya ev sahibliyi edib. Digər qalib ölkələr müsabiqəni keçirməkdən imtina etdikdə belə, Böyük Britaniya yarışmada ev sahibi olub.

Diqqət çəkən daha bir məqam: müsabiqədə Portuqaliyanın 45 dəfə, Kiprin 29 dəfə, Malta və İslandiyanın 24 dəfə iştirak etməsinə baxmayaraq, bu ölkələr hələ də qalib olmayıblar. Ümumiyyətlə, 25 ölkə «Eurovision» mahnı müsabiqəsi tarixində öz qələbəsini gözləməkdədir.

Müsabiqədə ən çox Almaniya (55 dəfə), ən az isə Mərakeş (1 dəfə) iştirak edib. Yarışmada ilk debütünü 1980-ci ildə edən Mərakeşin təmsilçisi Samira Bensaid o zaman 7 səs qazanmışdı.

Daha çox ənənəvi pop ifaçılarının qatıldığı «Eurovision» mahnı müsabiqəsində Finlandiyanın «Lordi» rok qrupunun qalib gəlməsi də maraqlı faktlardan sayılır. Qrup «Hard Rock Hallelujah» mahnısı ilə, qeyri-adi görkəmləri ilə Avropa ictimaiyyətinin rəğbətini qazanmağı bacardı və ölkələrinə hələlik yeganə qələbəni gətirdi. Müsabiqə ərəfəsində ölkəsində səhnə görkəminə görə böyük qınaq obyektinə çevrilən «Lordi» Finlandiyaya qalib döndü.

«Eurovision» mahnı müsabiqəsinin ən məşhur musiqi qrupu isə «ABBA»dır. 1974-cü ildə Böyük Britaniyada keçirilən müsabiqədə «Waterloo» mahnısı ilə İsveçi təmsil edərək qələbə qazanan «ABBA» bütün zamanların ən uğurlu qruplarından biri olub.

Almaniyalı Ralf Ziqel bəstəkar və mətn yazarı kimi «Eurovision» mahnı müsabiqəsinə daha çox iştirakçı kimi düşüb - o, bu yarışmada 19 dəfə iştirak edib.

Bu müddət ərzində müsabiqədə ən çox bal toplayan təmsilçi 2009-cu ildə Norveçi təmsil edən Aleksandr Rıbak olub. «Fairytale» mahnısı ilə milyonların ürəyini fəth edən müğənni 387 bal toplayaraq rekord göstərici ilə müsabiqə tarixinə düşməyi bacarıb.

İndiyədək Azərbaycan təmsilçiləri «Eurovision» mahnı müsabiqəsində dörd dəfə - 2008, 2009, 2010 və 2011-ci illərdə iştirak etmiş, ən yüksək nəticəni 2011-ci ildə əldə etmişlər. Eldar və Nigar dueti (Ell/Nikki) müsabiqədə sözləri Stefan Örn və musiqisi Sandra Bjurmana məxsus «Running scared» mahnısı ilə çıxış etmişdir. Təmsilçilərimiz Almaniyanın Düsseldorf şəhərində keçirilən 56-cı müsabiqədə 221 səs qazanaraq 43 ölkə arasında birinci olmuşlar.




söz vaxtına çakar

# Nağdsız ödənişlərin təşviq olunması üçün gözəl imkan

«Eurovision» mahnı müsabiqəsində iştirak üçün Bakıya gəlmiş turistlərin nağdsız ödəniş sistemlərindən istifadəsinə hər cür şərait yaradılıb. Azərbaycan Turizm Assosiasiyasının sədri, «Eurovision-2012» üzrə Təşkilat Komitəsinin üzvü Nahid Bağırovun sözlərinə görə, Bakının əksər ticarət və xidmət obyektlərində POS-terminalların quraşdırılması nəinki xarici turistlərin, ölkə vətəndaşlarının da rahatlığını təmin edir: «Xarici ölkələrin böyük əksəriyyətində istehlakçılar plastik kartlardan istifadə edirlər. POS-terminal şəbəkəsinin mövcudluğu həm də hər bir ölkənin iqtisadi və mədəni inkişaf səviyyəsinin göstəricisidir. Bu baxımdan, «Eurovision» kimi mötəbər tədbir ərəfəsində nağdsız dövriyyənin genişləndirilməsi alqışlanmalıdır. Müşahidələrimə görə, Azərbaycana gələn turistlər də yerləşdikləri hotellərdə, yaxud ticarət və xidmət obyektlərində nağdsız ödənişlərdən geniş istifadə edirlər. Yəni görülən tədbirlər artıq öz bəhrəsini verir».

Azərbaycan Turizm Assosiasiyasının sədri «Eurovision» mahnı müsabiqəsi ilə bağlı indiyədək respublikamıza 5 min turistin gəldiyini bildirib: «Adətən, final yarışmasına maraq daha böyük olduğu üçün yarışmanın finalı ərəfəsində ölkəyə gələn turistlərin sayı da kəskin şəkildə artacaq. Təşkilat Komitəsi həmin turistlərin lazımi səviyyədə qarşılanması və yerləşdirilməsi üçün bütün tədbirləri həyata keçirib. Bütün hotellərdə ingilis dilini bilən bələdçilər yerləşdirilib».

«Eurovision» mahnı yarışması ərəfəsində turistlərin ölkəmizlə yaxından tanışlığına lazımi imkan yaradıldığını deyən Nahid Bağırov ölkəmizin görməli guşələrinə təşkil olunan turlar barədə də məlumat verib: «Əcnəbi turistlər üçün Bakıda gündəlik 3 dəfə pulsuz «siti-tur»lar təşkil olunur. Bundan başqa, gün ərzində iki dəfə Qobustana, iki dəfə Abşerona, bir dəfə isə Şamaxı-İsmayıllı-Qəbələ-Şəki istiqamətində turlar təşkil edilir».

«Eurovision-2012»nin yüksək səviyyədə təşkil olunduğunu müsabiqə iştirakçıları da açıq etiraf edirlər: «Şəxsən mən son 3-4 ildə müxtəlif ölkələrdə keçirilən «Eurovision» müsabiqələrində iştirak etmişəm. Amma heç bir ölkədə Azərbaycanda olduğu kimi yüksək təşkilatçılıqla rastlaşmamışam. Şəhərimizə gəlmiş əcnəbi qonaqlar da belə bir yüksək təşkilatçılıq gözləmədiklərini bildirir və razılıqlarını ifadə edirlər. Bakı şəhərinin gözəlliyi onlarda xüsusilə xoş təəssürat doğrurur», - Nahid Bağırov demişdir.

**S.MUSTAFAYEV**

# İmpressionizm rəssamlığı

şedevrlar



*Klod Mone. «Təəssürat. Günəşin doğması».*

Fransızca impression - təəssürat sözündən əmələ gəlmiş impressionizm XIX əsrin ikinci yarısında Fransada təşəkkül tapmış və sonradan dünyaya yayılmış incəsənət cərəyanıdır. XX əsrin əvvəllərinə qədər davam etmiş bu cərəyanın nümayəndələri real dünyanı öz təəssüratlarının işığında daha təbii və sərbəst, daimi hərəkətdə və dəyişkən təsvir etməyə çalışırdılar. İmpressionizmin Klod Mone, Ogüst Rönuar, Edqar Dega, Kamill Pisaro, Alfred Sisley və Berta Morizo kimi böyük təmsilçilərinin əsərləri dünya rəssamlığının klassikasını təşkil edir.

İmpressionistlərin axtarışlarının kökləri 1860-cı illərə gedib çıxır - o vaxt gənc fransız rəssamları akademizmin üsul və məqsədlərini qəbul etmir, yeni üslub axtarırdılar. 1863-cü ildə Eduard Mane «Səfillər salonu»nda özünün «Çəmənlikdə səhər yeməyi» adlı əsərini sərgiləmişdi. Bu əsərin yeni üslubu gəncləri özünə cəlb etmiş, beləliklə, sənətdə yeni bir yol açılmışdı.

«İmpressionizm» termininin meydana gəlməsi isə Klod Monenin 1872-ci ildə çəkdiyi məşhur «Təəssürat. Günəşin doğması» əsərinin adı və üslubu ilə bağlı maraqlı bir təsadüfün nəticəsi olmuşdur. «Le Charivari» jurnalının əməkdaşı Lörua yeni cərəyana kəskin tənqidi münasibət bəsləyirdi. O, Klod Mone və bir qrup rəssamın əsərlərinə istehza etmək məqsədilə onları «impressionistlər» - təəssüratlar adlandırmışdı. Lakin istehza ilə işlədilmiş bu ad sonradan dünya incəsənətinin mühüm bir qolunun əbədi təyininə çevrildi...

Adətən, impressionizm termini rəssamlığın bir cərəyanı kimi başa düşülür, bununla belə, onun ideyaları ədəbiyyatda və musiqidə də özünə yer tutmuşdur. Ədəbiyyatda impressionizm ayrıca bir cərəyan olmasa da, onun xüsusiyyətləri naturalizm və simvolizm cərəyanlarında əks olunmuşdur. Hər şeydən öncə, yazıçı öz təəssüratlarına əsaslanır, reallığın obyektiv təsvirini verməkdən imtina edərək hər bir anı canlandırır, süjetə deyil, hadisələrin tarixi ardıcıllığına deyil, mülahizəyə üstünlük verirdilər. Ədəbiyyatda impressionist üslubun əsas yaradıcılarından olan Qonkur qardaşlarının «Gündəlik» adlı əsərində işlətdikləri «Görmək, hiss etmək, ifadə etmək - bütün sənət bundadır» məşhur ifadə bir çox yazıçılar üçün əsas yaradıcılıq prinsipinə çevrilmişdi.

# Allergiyaya diqqət!

sağlam hayat tarzi



Bahar aylarında polenlərin təsiri ilə artan allergiya insan bədəninin müdafiə mexanizmində meydana gələn funksiya pozulmasıdır. Bu pozulma zaman-zaman insanın yaşayış keyfiyyətini aşağı salır və müalicə olunmadıqda başqa xəstəliklərə yol aça bilir.

Ailə fərdlərinin birində allergiya olduqda uşaqda da yaranma riski yüksək olur. Allergiyası olan adamlarda ən çox rast gəlinən şikayətlərin burun tutulması, burun axması, burun qaşıntısı, asqırma, tez-tez təkrarlanan boğaz və qulaq infeksiyası ilə boğazda qıcıq hissi yaradan allergiya son zamanlarda xeyli artmışdır.

Baharda ən çox rast gəlinən allergiya növlərinin başında polen allergiyası durur. Çiçəklərin tozu ilə yayılan polenlər isti, quru və küləkli havalarda və xüsusi olaraq səhər saatlarında ən yüksək səviyyəyə çatır. Ona görə də xəstələrin səhərlər mümkün olduqca evdən bayıra çıxmaması məsləhət görülür. Mövsümi allergiya səbəblərindən biri də göbələk allergiyasıdır. Göbələklər polenlerdən fərqli olaraq soyuq havada da allergiya yaradır. Göbələklər ev şəraitində ən çox hamam və evlərin alt mərtəbələrində yaranır.

Uşaqlarda rast gəlinən və müəyyən bir yaşdan sonra aradan qalxan qida allergiyası da ən çox rast gəlinən hadisələrdəndir. İnək südü, yumurta, buğda, soya, fısdıq, qoz, qabıqlı dəniz məhsulları və balıq allergiya yarada bilir. Allergiyanin müalicəsi və şikayətlərin azalması üçün hər şeydən öncə, allergiya yaradan şəraitdən uzaq olmaq lazımdır. Polenlərdən qorunmaq üçün ən düzgün yol səhər saatlarında evdən bayıra çıxmamaq, pəncərələrin bağlı saxlanılması və hava süzgəcinin istifadə olunması məsləhət görülür.

Həkimlər allergiyadan uzaq olmağın imkansız olduğu hallarda anti-histamin və nasal kortikosteroid dərmanlarından istifadə olunmasını, lazım gəldikdə isə peyvənd müalicəsini məsləhət görürlər.

# Vesta planet xüsusiyyətləri daşıyır

araşdırma

Amerika Milli Aeronavtika Agentliyi - NASA-ya məxsus kosmik «Şəfəq» («Dawn») gəmisi Günəş sistemində mövcud olan nəhəng Vesta asteroidinin Yer kürəsi və Mars planetləri kimi əmələ gəldiyinə və «proto-planet» olduğuna dair mülahizələr irəli sürmüşdür.

Astronomiya elmlərinə aid saytlarda yayılmış xəbərə görə, NASA-nın 2007-ci ildə kosmosa göndərdiyi və keçən ilin iyul ayından bəri «Vesta»nın ətrafına dolaşan kosmik cihaz tərəfindən ötürülən məlumatlar bu asteroid haqqında təsəvvürləri xeyli dəyişdirmişdir.



«Şəfəq» proqramı üzərində çalışan elm adamları diqqəti Vestanın asteroidlər ilə planetlər arasında orta mövqe tutduğuna çəkərək, bu asteroidin kiçik planetləri əmələ gətirən bir çox xüsusiyyətlərə malik olduqlarını qeyd etdilər.

Vestanın əriyən və formasını dəyişən nüvəsi ilə qabıq qatının olduğunu bildirən alimlər onun səthinin digər qaya səthli planetlərə bənzədiyi ehtimalını irəli sürmüşlər.

Nəhəng asteroidin planetə yaxın olduğunu bildirən astronomlar diametri 530 kilometr olan yuvarlaq formalı bu göy cisminin Yer kürəsi və Ay kimi qaya səthli planetlərə məxsus geoloji xüsusiyyətlərə malik olduğu qənaətinin üzərində dayanmışlar.

Günəş sisteminin ikinci ən böyük asteroidi olan Vesta təxminən bir milyard il öncə meydana gələn Risilvina adı verilmiş böyük krater və asteroid silsiləsinin digər nümunələrinin yaratdığı bir çox dərin izləri ehtiva edir.

# Fotomüsabiqə



Dayanmadan dəyişən zamanın bir anını əbədiləşdirib yaddaşlarımıza köçürən fotolar unudulmaz xatirələrin nişanəsi olmaqla bərabər, həm də böyük estetik həzz mənbəyidir.

Əziz oxucular! İndi, demək olar ki, hamının foto çəkmək, zamanın bir anını əbədi xatirəyə çevirmək imkanı var. Bəs çəkdiyiniz fotoları (əlbəttə, zəruri estetik tələblərə cavab verən işləri) başqaları ilə bölüşmək arzunuz varmı? Düşünürük ki, «Vergilər» qəzetinin fotomüsabiqəsi foto həvəskarları üçün gözəl imkan yaradır.

Müsabiqənin nəticələri ilin sonunda yekunlaşacaq və üç nəfər qalib, başqa sözlə, birinci, ikinci və üçüncü yerlərə layiq görülənlər qiymətli rəqəmsal fotoaparatla mükafatlandırılacaqlar.

***Sizi müsabiqəmizə qoşulmağa dəvət edirik.***

*Müsabiqəyə təqdim etmək istədiyiniz fotoları elektron formatda bu ünvana göndərə bilərsiniz: osmanogm@yahoo.com*

**Müdriklər deyib ki...**

***«Yaxşı əməldə hər zaman həm xeyirxahlıq, həm də onu başa çatdırmaq üçün qüvvə olur».***

***Şarl Lui de Monteskyö (1689-1755)***

